www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 22 noyabr 2017-ci il Çərşənbə № 243 (6857) Qiyməti 60 qəpik

**Xəbər**

**Astarada 3 uşaq atası intihar etdi- təfərrüat**

yazısı səh.14-də

**Gündəm**

**Parlamentdə büdcə müzakirələri başladı**



Baş nazirin qatıldığı iclasda Mərkəzi Bank sədri maliyyə bazarındakı vəziyyəti açıqladı; YAP-çı deputat xaricdəki bəzi səfirliklərin bağlanmasını təklif etdi

yazısı səh.5-də

**Akif Çovdarovun bəraət istəməsinin sirri**

yazısı səh.7-də

**Azərbaycan və Rusiya müxalifəti: fərqli və ortaq cəhətlər**

yazısı səh.6-da

**Avropanın "ürəyi"ndə erməni təbliğatına zərbə**

yazısı səh.11-də

**Deputatın "neft bahalaşdı, islahatlar dayandı" iddiasına reaksiya**

yazısı səh.12-də

**Türkiyə NATO-dan çıxsa... mümkün nəticələr**

yazısı səh.8-də

**Bu gün 3 prezident Soçidə Suriyanın taleyini həll edəcək**

yazısı səh.9-da

**"Bu yol və körpü prezidentin bizə hədiyyəsidir" - Tovuzun Yuxarı Öysüzlü kəndindən reportaj**

yazısı səh.4-də

**Fuad Poladovun hamının maraq etdiyi bir cümləsi...**

yazısı səh.13-də

**Ermənistan "dəmir blokada"dan çıxır?**

yazısı səh.3-də

**Enerji, qaz və su şəbəkələri niyə özəlləşdirilmir?**

yazısı səh.10-da

# KREMLİN İDEOLOQU QARABAĞA GƏLİR - İRƏVANDA TÜRKİYƏ XOFU

**Aleksandr Proxanov:** "Ermənistanda qorxu var ki..."; Sergey Lavrovun Bakı və İrəvan səfərlərində ermənilərə verdiyi əsas mesaj; konflikt ətrafında vəziyyət yeni aprel müharibəsinə aparacaq, əgər...



yazısı səh.9-da

# Eldar Mahmudovun şərti var: istintaqa gizli gələcək

Sabiq təhlükəsizlik naziri ətrafında müəmma davam edir; istintaqa çağırılan MTN-in sabiq şefinin niyə vəkili yoxdur?

yazısı səh.7-də



**Konte bu gün saqqalını Bakıda qoyub gedəcəkmi...**

yazısı səh.15-də



**İlqar Məmmədovun taleyi ilə bağlı kritik həftə**

yazısı səh.3-də



**Lavrovun Bakıdan anti-Qərb mesajları**

yazısı səh.6-da

YENİ MÜSAVAT
N 243 (6857) 22 noyabr 2017




## "Palmali" FTX araşdırması xəbərini təkzib etdi

**"Palmali" Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin (FTX) İqtisadi Təhlükəsizlik Xidməti tərəfindən şirkətlər qrupunun bu ölkədəki nümayəndəliyinə qarşı araşdırmalara başlanılması barədə yayılan xəbərlərə münasibət bildirib.**

"Palmali"nin regional ofisinin rəhbərinin birinci müavini Tuyqun Nadirov "APA-Economics"ə bildirib ki, yayılan xəbərlər uydurmadır. T.Nadirov deyib ki, bir neçə il bundan öncə Rusiyanın vergi orqanları "Palmali"ni vergidən yayınmaqda ittiham edib, lakin şirkətlər qrupu məhkəmə yolu ilə bunun əsassız olduğunu sübut edib.

"Qəti şəkildə bildirirəm ki, "Palmali" şirkətlər qrupunun nə Rusiyanın vergi, nə də hüquq-mühafizə orqanları ilə heç bir problemi yoxdur. Bundan başqa, əminliklə deyirəm ki, bu qəbildən olan yazılar sifarişli xarakter daşıyır və uydurmalara əsaslanır. Bu yazının "Russia Today" telekanalı tərəfindən tirajlanmasına da təəccüblənmədim. Belə ki, bu telekanalın rəhbəri erməni əsilli Marqarita Simonyandır. Onu da qeyd edim ki, Simonyan Azərbaycana qarşı hər zaman ədalətsiz mövqedən çıxış edib. Bir daha deyirəm ki, şirkətimizin nümayəndəliyində heç bir yoxlama aparılmır", - deyə o vurğulayıb.



## "NATO təlimində Türkiyəyə qarşı əməlin izahı ola bilməz"

**"NATO təlimində Türkiyəyə qarşı edilən səhvin və ağla sığmayan addımın atılmasının izahatı ola bilməz". APA-nın "Anadolu" agentliyinə istinadən verdiyi məlumata görə, bu sözləri Azərbaycanın Türkiyədəki səfiri Xəzər İbrahim NATO-nun Norveç və Hollandiyada keçirilən təlimlərində Türkiyəyə qarşı baş vermiş təxribatlara münasibət bildirərkən deyib.**

O bildirib ki, Türkiyə NATO-nun ən önəmli üzvlərindən biridir: "Mustafa Kamal Atatürk və prezident Ərdoğan Türkiyənin simvoludur. Hər ikisi Qərblə Türkiyənin münasibətlərinin inkişafı üçün çox işlər görüb, hər zaman dostlarının yanında olub. NATO təlimində belə bir səhvə yol verilməsinin, ağlagəlməz addımın atılmasının izahı yoxdur. Hadisədən sonra NATO tərəfindən dəfələrlə üzr istənildi. Türkiyənin bu izahatları qəbul etməməsi tamamilə məntiqlidir. Bir daha qeyd edirəm ki, bu kimi işlər ağla və məntiqə sığmır".

Qeyd edək ki, X. İbrahim daha əvvəl Azərbaycanın NATO-dakı səfiri olub.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

# Fransa səfiri XİN-ə çağırıldı

**"ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrindən biri olan Fransaya Azərbaycanın Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş ərazilərində yaradılmış qanunsuz rejimin təmsilçisi kimi özünü təqdim edən Bako Saakyan adlı şəxsin səfəri ilə əlaqədar kəskin etirazımızı ifadə edirik".**

Bunu APA-ya açıqlamasında XİN-nin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev deyib.


Hikmət Hacıyev

H. Hacıyev bildirib ki, Avropa İttifaqı ölkələrində fəaliyyət göstərən erməni lobbi dairələri və Ermənistan bu yolla Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qanunsuz rejimi təşviq etməyə və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həllinə maneə olmağa çalışır.

"Sözügedən məsələ ilə əlaqədar Fransanın Azərbaycandakı səfiri ilə XİN-də görüş keçirilib. Azərbaycan Respublikasının Fransadakı səfirliyinin isə Fransa XİN-də görüşü nəzərdə tutulub.

Fransa tərəfinin bu təlimatdan çıxış edərək Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimlə qanunsuz sənədlər imzalayan yerli orqanlara münasibətdə zəruri addımlar atacağını gözləyirik" - deyə H. Hacıyev vurğulayıb.




## Bağlanmış banklarla bağlı araşdırma gedir

**"Bank Standard" QSC-nin 743 mln. manatlıq kredit portfelinin 304 mln. manatdan artıq hissəsi 0% ilə verilib".**

"APA-Economics" xəbər verir ki, bunu "Bank Standard" QSC-nin Kreditorlar Komitəsinin iclasında komitə sədri Əkrəm Həsənov deyib.

Onun sözlərinə görə, 0% dərəcəsi ilə verilən ən yüksək kreditin məbləği 13 mln. manatdır. "Faizsiz kredit verilməsi dövlət təhlükəsizliyi məsələsidir. Burada söhbət çirkli pulların yuyulmasından da gedə bilər. Təklif vermişik ki, Dövlət Təhlükəsizlik Xidmətinə müraciət edilsin və bu kreditlərin kimə verildiyi araşdırılsın. Faizsiz kreditlərin əksəriyyəti fiziki şəxslərə verilib".

Komitə sədri əlavə edib ki, kredit portfelinin 58%-i girovsuz, 42%-i isə qismən girov təmin edilməklə verilib.

Əmanətlərin Sığortalanması Fondunun icraçı direktoru vəzifəsini müvəqqəti icra edən Vüqar Abdullayev isə deyib ki, qurumun fəaliyyəti yenidən nəzərdən keçirilir. Onun sözlərinə görə, bağlanmış banklarla bağlı hüquq-mühafizə orqanlarına 500-dən çox sənəd təqdim olunub ki, işlər 600 mln. manatdan artıq vəsaiti əhatə edir.

## "Əsəd rejimi hələ də yerindədirsə, bu qədər qan niyə tökülüb?"



**"ABŞ-ın bölgəmizdə yürütdüyü siyasətin yanlış olduğuna dair narahatlığımızı hər zaman ifadə etmişik". "Haber 7" bildirir ki, bunu Türkiyə prezidenti Rəcəb Tayyip Ərdoğan AK Partiyasının qrup toplantısında çıxışında deyib.**

R.T.Ərdoğan ABŞ-ın dərdinin əslində başqa olduğunu qeyd edib: "İŞİD terrorçularını təmizlədiyinizi deyirsiniz, amma silah yüklənmiş avtomobillər hələ də Suriyaya gedir. Bu, hələ də niyə davam edir? Siz hansı ölkəyə qarşı silahlanırsınız? Dərdiniz başqadır. Nəyin nə olduğunu yaxşı bilirik. Ona görə də lazımi addımlar atacağıq. Kimsə bu ssenarilərin qarşısında Türkiyənin əli-qolu bağlı oturmasını gözləməsin.

Suriyada Əsəd rejimi hələ də yerində qalır. Belədirsə, bu qədər qan niyə tökülüb? Deməli ki, məsələ terrorla mübarizə, demokratiyanın bərpası, məzlumların hüquqlarının qorunması deyil. Biz qonşularımızın bu cür həmlələrinə biganə qalmayacağıq".

## Məcburi köçkünün 3 övladı dünyaya gəlib

**Mingəçevir şəhər Mərkəzi Xəstəxanasında gənc ananın 3 övladı dünyaya gəlib. APA-nın yerli bürosunun xəbərinə görə, Kəlbəcər rayonundan məcburi köçkün olan və 1993-cü ildən bəri Mingəçevir şəhərində vaqon evdə yaşayan Vüsal Mamedovun ailəsində dünyaya gəlmiş körpələrin hər üçü qızdır.**

Onlar Mingəçevir şəhər Mərkəzi Xəstəxanasının doğum şöbəsində 10 dəqiqə fasilə ilə doğulub. İlk doğulan qızın çəkisi 1 kq 900 qram, sonrakı uşağın çəkisi 1 kq 700, üçüncü körpənin çəkisi isə 1 kq 600 qram olub. Üçəmlərin və onların anası, 1987-ci il təvəllüdlü Mamedova Fəxriyyə Zahid qızının vəziyyəti qənaətbəxşdir. Onlar hazırda xəstəxanada həkim nəzarəti altında saxlanılır. Valideynlər körpələrə Mehriban, Leyla və Arzu adlarını verib.

Qeyd edək ki, üçəmdən əvvəl gənc ailənin bir qız övladı da var.

## Bakıda 15 dərəcə isti olacaq

**Bakı və Abşeron yarımadasında noyabrın 22-də havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin axşam bəzi yerlərdə yağış yağacağı ehtimalı var.**

Mülayim cənub-qərb küləyi gündüz güclü şimal-qərb küləyi ilə əvəz olunacaq.

ETSN-dən verilən məlumata görə, havanın temperaturunun gecə 10-13° isti, gündüz 13-16° isti, Bakıda gecə 10-12° isti, gündüz 13-15° isti olacağı gözlənilir.

Atmosfer təzyiqi 753 mm civə sütunundan 763 mm civə sütununa yüksələcək. Nisbi rütubət 70-80% olacaq.



## Zakir Həsənov BƏƏ generalı ilə görüşüb

**Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov ölkədə səfərdə olan Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) Milli Müdafiə Kollecinin nümayəndə heyətinin rəhbəri briqada generalı Salim Əl-Şamsi ilə görüşüb.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, regiondakı hərbi-siyasi vəziyyətə toxunan müdafiə naziri qonağa Azərbaycanın uzun illər erməni terrorizmi, separatizmi ilə üzləşdiyini, erməni terrorçuları tərəfindən respublikanın dinc əhalisinə qarşı onlarla terror aktlarının törədildiyini və Ermənistanın terrorizmi dəstəkləyən ölkə olduğunu vurğulayıb.

Ölkələr arasında hərbi təhsil, hərbi sənaye və hərbi-texniki sahələrdə əməkdaşlığın müzakirə olunduğu görüşdə onun inkişafı üçün geniş perspektivlərin mövcudluğu qeyd edilib. Bildirilib ki, bütün istiqamətlərdə olduğu kimi hərbi sahədə də Azərbaycan-BƏƏ əməkdaşlığının genişləndirilməsi ölkələr arasında münasibətlərin dərinləşməsinə, eləcə də regionda sülhün, sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinə layiqli töhfə verəcək.

## İtaliyada yenidən Azərbaycan borusuna qarşı etirazlar başlayıb

**İtaliyanın Apuliya bölgəsində Azərbaycandan təbii qazın İtaliyaya nəqli üçün nəzərdə tutulmuş Transadriatik qaz kəmərinin (TAP) tikintisinin əleyhdarlarının polislə kütləvi toqquşmaları baş verib.**

Virtualaz.org yerli ANSA agentliyinə istinadən xəbər verir ki, mənbəyə görə, nümayişçilər Leççedə qanun keşikçilərini yumurta atəşinə tutublar və qaz kəmərinin tikildiyi əraziyə keçmək istəyiblər.

Qeyd edək ki, 2017-ci ilin mart ayında İtaliya Dövlət Şurası TAP-ın tikintisinə razılıq verib. Bu qərar yerli hakimiyyətlərin tikinti ilə bağlı mənfi rəyini nəzərə almamağı özündə ehtiva edir. İtaliya Ali İnzibati Məhkəməsi də qaz kəmərinin tikintisinin davam etdirilməsi barədə qərar çıxarıb.

YENİ MÜSAVAT
N 243 (6857) 22 noyabr 2017

# İlqar Məmmədovun taleyi ilə bağlı kritik həftə

## Fuad Ağayev: “Problemin həlli yolunu yalnız onun azad edilməsində görürəm”

**REAL hərəkatının həbsdəki sədri İlqar Məmmədovun azadlığa buraxılması ilə bağlı Avropa Şurası Nazirlər Komitəsinin Azərbaycan hakimiyyətinə verdiyi vaxtın bitməsinə bir həftə qalır. Hərəkat rəhbəri ətrafında son aylarda yaranan müəmmalar davam edir.**

Bununla bağlı hərəkatın media üçün yaydığı açıqlamada İlqar Məmmədova təzyiq olduğunu vurğulayır: “Məsələnin ciddiliyini nəzərə alaraq İlqar Məmmədov ABŞ-ın, Avropa Birliyinin, Avropa Şurasının və AB üzvü olan dövlətlərin səfirliklərinə məlumat verib və onlarla görüş istəyib”.



**REAL-ın icraçı katibi Natiq Cəfərli** bildirdi ki, bir-biri ilə bir o qədər də əlaqəli olmasa da, Avropa Birliyinin 24 noyabr Brüssel sammiti və Avropa Şurası Nazirlər Komitəsinin keçiriləcək iclasının bağlılığı var: “İştirakçı dövlətlər eyni olduğu və mövqelər aşağı-yuxarı eyni səsləndiriləcəyi üçün bu iki tədbirin bağlılığı var. Yaxınlarda İlqar Məmmədovla bağlı növbəti qərar da açıqlandı. Avropa İnsan Haqları Məhkəməsinin qərarında 6-cı maddə ilə İlqar Məmmədovun məhkəməsinin qaydalara uyğun keçirilməmişi bir daha təsdiq olundu. Bu da onun azadlığa çıxma hüququnun növbəti bəyani idi. Biz ümid edirik ki, Azərbaycan hökuməti Avropa institutları ilə münasibətlərin son həddə qədər gərginləşdirilməsində maraqlı deyil. Məntiqlə də maraqlı olmamalıdır. Çünki Avropa Birliyi ölkələri Azərbaycanın ən böyük tərəfdaşıdır. Avropa məkanı Azərbaycandan ən çox məhsul alan və investisiya qoyan məkandır. Ticari əlaqələr kifayət qədər yüksək səviyyədədir. Siyasi gərginliyin artması bu əlaqələrə ciddi təsir edə bilər. Bu da ölkəmiz, xalqımız, hətta siyasi qüvvələr üçün belə arzuolunan deyil. Ümid edirəm ki, Brüssel sammitində və ortaq danışıqlarda nəticə əldə olunacaq, həm İlqar Məmmədovun yaxın zamanlarda azad olunmasını görəcəyik, həm də Azərbaycanla Avropa institutları arasında gərginləşən münasibətlərin qarşısı alınacaq. Bu çox vacibdir. Çünki Azərbaycanın özü Avropa Şurasından çıxarılsa, yaxud çıxsa, bu zaman çox vacib bir platformadan məhrum olacağıq. Burada söhbət tək siyasi müstəvidə cərəyan edən proseslərdən getmir. Orada işğal altında olan torpaqlarımız da müzakirəyə çıxarılır. Bizim orada olmamağımızdan istifadə edəcək erməni deputat qrupu bu məsələni tez-tez qaldıra bilər. Bizim iştirakımız olmadan əleyhimizə müəyyən qətnamə və qərarların qəbuluna nail ola bilərlər. Dövlətçilik baxımından Avropa Şurasında qalmağımız çox vacibdir. Ümid edirəm ki, Azərbaycan tərəfi bu məsələlərə çox soyuqqanlı yanaşacaq. Brüssel sammitində danışıqların intensivləşməsi üçün qərar da qəbul oluna bilər. Təəssüflər olsun ki, ilkin məlumatlara görə, ikitərəfli saziş imzalanmayacaq. Amma ən azından bu danışıqların daha sürətli, ciddi qərarların qəbulu, imzalanmanın ən azından gələn ilin əvvəllərində baş tutması üçün müəyyən qərarlar verilə bilər. Şəxsən buna ümid edirəm. Düşünürəm ki, Azərbaycan hökumətinin də burada ciddi marağı var”.

**N.Cəfərli həbsxanada İ.Məmmədova təzyiqlərin olduğu barədə yaydıqları bəyanata da toxundu:** “Açığı, İlqar Məmmədova qarşı təzyiqlər hər zaman olub. Bir çox hallarda, REAL hərəkatı, idarə heyətinin üzvləri olaraq, bu təzyiqləri ictimailəşdirməmişik. Amma son vaxtlar müəyyən təzyiqlərin olması bizdə bu cür qənaət formalaşdırır ki, bu təzyiqlər Avropa Məhkəməsinin verdiyi son qərarla bağlıdır, bir də gələcəkdə İlqar Məmmədovun azad edilməsi ehtimallarının artması ilə əlaqədardır. Ola bilər ki, belə təzyiqlər vasitəsilə İlqar Məmmədovla bağlı müəyyən güzəştlərin əldə olunmasına çalışırlar. Amma onu da açıq demək lazımdır ki, birbaşa İlqar Məmmədova qarşı fiziki təzyiqlər, yaxud hər hansı bir mənəvi təzyiq olmayıb. Nə baş verirsə, biz onun ictimaiyyətə açıqlanmasının tərəfdarıyıq. Bundan sonra İlqar Məmmədova qarşı təzyiqlərin artması halları yüksələ bilər. Əgər Avropa Şurasını tərk etsək, yaxud çıxarılsaq, bununla bağlı sərt qərarlar qəbul olunsa, düşünürəm ki, bu, siyasi məhbusların hamısına ciddi təsir göstərəcək, o cümlədən İlqar Məmmədova. Bu hal onun həbsdə qalması müddətini uzada bilər”.

**İ.Məmmədovun vəkili Fuad Ağayev bunları dedi:** “İlqar Məmmədovun azad edilib-edilməyəcəyi ilə bağlı proqnoz vermirəm. Amma hər halda, iqtidarın qarşısında ciddi problem görürəm. Bu problemi qanun, üzərinə götürdüyü beynəlxalq öhdəliklərin yerinə yetirilməsi çərçivəsində hökumət həll etməlidir. Problemin həlli yolunu yalnız İlqar Məmmədovun azad edilməsində görürəm. İqtidarın hansı şəkildə hərəkət edəcəyini proqnozlaşdıra bilmirəm. Noyabrın 16-da verilən qərardan sonra İlqar Məmmədovla görüşmüşəm. Sadəcə, imkan olmadı ki, həmin qərarı ətraflı oxuyaq. Qərara münasibəti müsbət oldu”.

❑ Cavanşir ABBASLI

# Ermənistan “dəmir blokada”dan çıxır?

## Ekspert: “Abxaziya dəmir yolunun tezliklə açılacağını düşünmürəm, çünki...”

**Moskva-İrəvan alyansına Tiflis də qoşulur. Noyabrın sonuna qədər Gürcüstan Ermənistanın blokadasında əsas rollardan birini oynayan Abxaziya nəqliyyat dəhlizini aça bilər. Bununla da Qarabağ müharibəsində Azərbaycan Ermənistana əsas təzyiq vasitələrindən birini itirə bilər.**

Gürcüstan hökumətinin bu niyyəti barədə baş nazir Georgi Kvirikaşvilinin xüsusi təmsilçisi Zurab Abaşidze Rusiyanın “Kommersant” qəzetinə müsahibəsində bildirib. Rusiya xarici işlər nazirinin müavini Qriqori Karasinlə görüşdən sonra Zurab Abaşidze ümid etdiyini bildirib ki, “artıq noyabr ayında keçirilən görüşün gedişində tərəflər İsveçrənin SGS şirkəti ilə müvafiq sazişlər imzalayacaqlar”.

Məsələ bundadır ki, hələ fevral ayında Zurab Abaşidze və Qriqori Karasin arasında əldə edilən anlaşmaya görə, SGS şirkəti Rusiya ilə Gürcüstan arasında olan mövcud nəqliyyat dəhlizlərində yüklərin hərəkətini izləyəcək. Həmin dəhlizlərin biri Soçidə başlayır və Abxaziyadan keçərək Zuqudidi şəhərində başa çatır.

Yəni söhbət Ermənistanla Rusiya arasında dəmir yolu əlaqəsinin bərpasından gedir. Abxaziyada müharibə başladıqdan sonra bu yolda hərəkət dayanmışdı və Ermənistanın ətraf dünyadan tam təcridi təmin edilmişdi. Gürcüstan Rusiyanın Abxaziyanı işğaldan azad etməyəcəyinə qədər bu yolun açılmayacağını bildirirdi. Amma belə görünür ki, Gürcüstanın indiki rəhbərləri öz ölkələrinin ərazi bütövlüyünü arxa plana keçirirlər və Abxaziya ilə dəmir yolu əlaqələrini bərpa etməyə qərar veriblər.



Odur ki, birmənalı şəkildə demək olar ki, Ermənistanın blokadadan çıxarılması münaqişənin həllində Azərbaycanın təsir imkanlarının zəifləməsi deməkdir. Bəs Gürcüstan ən yaxın müttəfiqi Azərbaycana bu pisliyi edəcəkmi? Nəzərə alaq ki, Gürcüstanın təbii qaza, yanacağa olan tələbatı əsasən Azərbaycan tərəfindən təmin olunur. Bu ölkənin ən dar günlərində Azərbaycan hökuməti yardım əlini uzadıb. Son illərdə Azərbaycanın bütün beynəlxalq layihələrində Gürcüstan da iştirakçılardan birinə çevrilib. Bütün bunlara rəğmən Azərbaycanın əleyhinə olan belə bir razılaşmaya gedərək, Abxaziya nəqliyyat dəhlizini Ermənistanın üzünə aça bilərmi?

**“Yeni Müsavat”a açıqlamasında bu sualı cavablandıran “Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu bildirdi ki, Gürcüstan rəsmisi tərəfindən bu açıqlamanın verilməsi hələ məsələnin həlli demək deyil:** “İllərdir biz eşidirik ki, həmin dəmir yolu açılacaq. Ancaq ortada konkret bir nəticə yoxdur. Həmçinin Gürcüstanda hakimiyyət dəyişdikdən sonra belə iddialar səsləndirilir ki, İvanişvili Rusiyanın adamıdır. Gələn kimi də Rusiya ilə diplomatik münasibətlərin qurulacağı və vəziyyətin normallaşacağı ilə bağlı bəyanatlar verdi. Ancaq üstündən illər keçib, illərdir Saakaşvilli ölkədə yoxdur. Ancaq hələ də Gürcüstanla Rusiya arasında diplomatik münasibətlər bərpa olunmayıb, rəsmi səviyyədə gediş-gəliş yoxdur. Eləcə də bu məsələnin yaxın müddətdə həll ediləcəyini proqnozlaşdırmıram”.

**Politoloq onu da vurğuladı ki, əgər dəmir yolu açılarsa, Rusiya Abxaziya və Gürcüstan üzərindən Ermənistana çıxış imkanı əldə edərsə, bu, Ermənistanın blokadadan müəyyən qədər çıxmasına şərait yaradacaq:** “Bəli, bizim Gürcüstanla strateji müttəfiqliyimiz var. Amma biz Gürcüstanın daxili işlərinə qarışa bilmərik. Onlara deyə bilmərik ki, sən bu yolu açma, bizim maraqlarımıza zidd ola bilər. Əgər Gürcüstan Azərbaycanla strateji müttəfiqliyi əsas tutursa, o, bu məsələni diqqətə almalıdır. Çünki bu dəmir yolunun işləməsi Gürcüstana elə də böyük xeyir verməyəcək, daha çox Ermənistana lazımdır. Bu, Gürcüstanın özünün müstəqil verəcəyi bir qərardır. Ancaq Azərbaycanın maraqlarını, hər halda, nəzərə almalıdır”.

**E.Şahinoğlunun fikrincə, bu məsələ qısa müddətdə həll olunmayacaq:** “Gürcüstan hələ ona etiraz edir ki, bu layihədə Abxaziya və Cənubi Osetiya hər hansı şəkildə iştirak etməsin. Bu da mümkünsüzdür. Bu dəmir yolu Abxaziyadan keçir, Abxaziyanın dəmir yolu idarəsi və digər qurumları prosesdə iştirak etməlidirlər. İştirak etsə belə çıxacaq ki, Gürcüstan rəsmən Abxaziya separatçılarını tanıyır. Bu məsələdə o qədər gizli detallar var ki, yaxın müddətdə həllini tapacağını düşünmürəm”.

**Ekspert onu da diqqətə çatdırdı ki, Gürcüstan ilk növbədə öz maraqlarının diktəsi ilə hərəkət edəcək:** “Hər bir dövlət belə edir. Bizim də dövlət maraqlarımıza nə uyğundursa, ona uyğun hərəkət edirik. Gürcüstanın maraqlarına uyğun gələcəksə, bu dəmir yolunu açacaq. Orada Azərbaycanı düşünməyəcək. Yox, cavab verməyəcəksə, orada separatçılarla birbaşa əlaqə olmasın deyə açmaya da bilər. Seçicilər arasında bu qərar böyük rezonans doğura bilər. Onlar hökumətə deyə bilərlər ki, Rusiya bizim torpaqlarımızı işğal edib, siz Rusiya ilə Ermənistanı birləşdirən dəmir yolunun açılmasına icazə verirsiniz. Gürcüstan hökuməti bunu da nəzərə alacaq. Bütün gürcülər bu dəmiryolunun açılmasının tərəfdarı deyil. Bu çox mürəkkəb bir qərar olacaq. Gürcüstan hökuməti bütün amilləri, o cümlədən Azərbaycanın reaksiyasını nəzərə almalıdır. Əks halda, bir çox risklərlə üzləşə bilər. Danışıqlara gəlincə, bu illərdir davam edir. Bu, təkcə dəmir yolu ilə bağlı danışıqlar deyil. İllərdir İsveçrədə Rusiyanın xarici işlər nazirinin müavini ilə Gürcüstan xarici işlər nazirinin müavini arasında danışıqlar gedir. Rusiya ilə xarici işlər nazirinin müavini arasında münasibətlərin nizamlanması, digər məsələlərlə bağlı... İllərdir gedən danışıqlar da heç bir real nəticəyə gətirib çıxartmayıb. Diplomatik münasibətlər bərpa olunmayıb. Rəsmi səviyyədə gediş-gəliş yoxdur. Bu məsələlər həll olunmazkən, dəmir yolunun açılmasını necə həll edəcəklər, bu mənim üçün böyük sualdır”.

❑ Nərgiz LİFTİYEVA

YENİ MÜSAVAT
N 243 (6857) 22 noyabr 2017

# “Bu yol və körpü prezidentin bizə hədiyyəsidi” - Tovuzun Yuxarı Öysüzlü kəndindən reportaj

## Bakıdan 450 km uzaqlıqda yerləşən kəndlərə “Azəravtoyol” ASC keyfiyyətli yollar çəkib, körpü salınıb; kənd sakinləri deyir ki, bütün bunlar onlara yuxu kimi gəlir

**“Yeni Müssvat”ın ötən sayında Tovuz rayonunda görülən işlər haqda yazmışdıq. Bildirmişdik ki, növbəti reportaj rayonun Yuxarı Öysüzlü kəndindən olacaq. Vədimizə sadiq qalaraq reportajı təqdim edirik.**

***


Yuxarı Öysüzlünün girişi

Yuxarı Öysüzlü sakinləri deyirlər ki, onların üzləşdiyi bəzi problemlərin belə tezliklə həll ediləcəyinə inanmırdılar. İnsanlar buna görə sevinclidilər.

Kəndin içindən keçən yola asfalt örtük çəkilib. Tovuz çayı üzərində yeni avtomobil körpüsünün tikilməsində əməyi olan, bu işə qol qoyan şəxslərə dua edir. Bu layihələr üzrə son tamamlama işləri gedir.

“Azəravtoyol” ASC hazırda Tovuzun bir neçə kəndinə asfalt yol çəkir. Dağılmış, baxımsız halda olan yollar “Azəravtoyol” rəhbərliyinin, mütəxəssislərinin yaxından iştirakı və dəstəyi ilə yenidən qurulur. Yuxarı Öysüzlüdə Tovuz çayının üstündə tikilən və bu günlərdə istifadəyə verilən körpünün ümumi uzunluğu 45 metr, eni isə 4.5 metrdir. Sözügedən ərazidə körpünün tikintisi əhalinin rayon mərkəzinə, həmçinin qonşu Qazqulu, Vahidli və Ağdam kəndlərinə gediş-gəlişlərini xeyli asanlaşdırıb, məsafəni dəfələrlə qısaldıb.

Bundan əlavə, körpünün yaxınlığında 50 metr uzunluğunda və 4 metr hündürlükdə istinad divarları da inşa edilir.

Layihə çərçivəsində yolun altından suların ötürülməsi üçün 29 ədəd müxtəlif ölçülü dəmir-beton boruların tikintisi işləri də aparılıb.

**Sahə rəisi Yaqub Qurbanov da görülən işlərlə bağlı “Yeni Müsavat”a danışıb:** “Körpünün inşası respublikada kənd yollarının inkişafı ilə əlaqədar gediş-gəlişin yaxşılaşdırılması sərəncamı ilə həyata keçirilir. Bu işlərə oktyabr ayının 11-də başlanılıb və gördüyünüz kimi, son tamamlanma işləri aparılır. İşlərin tezləşdirilməsi üçün iki növbəli rejim təşkil olunub. Köpünün uzunluğu 45 metr, eni isə 4.5 metrdir. Qazma üsulu ilə 10 metrlik dayaqlar tikilib. Sel sularından qorunmaq üçün isə istinad divarları inşa edilib. Onu da vurğulayaq ki, körpü həm də strateji əhəmiyyətə malikdir. Ağdam və Yuxarı Öysüzlü kəndlərini birləşdirir”.


Yeni körpü

Əsaslı təmir işləri tamamilə başa çatdıqdan sonra yola 46 ədəd məlumatverici lövhə və yol nişanları quraşdırılacaq.

Tovuz-Ağdam-Yuxarı Öysüzlü-Əlibəyli-Hacalı avtomobil yolunun yenidən qurulması ilə 4 yaşayış məntəqəsinin minlərlə əhalisinin gediş-gəlişi rahatlaşacaq, yük və sərnişin daşınması xeyli asanlaşacaq.


Kənd sakinləri

Kənd sakinləri deyirlər ki, Yuxarı Öysüzlünün mərkəzində artezian quyusu qazılaraq əhalinin istifadəsinə verilib. Həmin quyu hər gün 60-70 evi içməli su ilə təmin edir. Üstəlik, avtomobil yolunun yaxınlığında tikilən bulaq kompleksindən yüzlərlə insan evinə su daşıyır.

**Kənd sakini Yaşar Məmmədov danışır ki, kənddə su problemi həmişə olub:** "“Yeni Müsavat”n baş redaktoru Rauf Arifoğlu bu kənddəndir. Onun təşəbbüsü və rayon rəhbərliyinin dəstəyi ilə 2015-ci ildə artezian quyusu qazılıb istifadəyə verdi. Quyu Meliorasiya və Su Təsərrüfatı ASC-nin xətti ilə qazıldı. Rauf bəy yeni asfalt yolun və körpünün tikintisi işində də əsas təşəbbüskar oldu. Sağ olsun aidiyyəti qurumlar, onun bu təşəbbüsünə dəstək verdilər, nəticədə ortaya gözəl bir iş çıxdı. İndi 60-70 ailə bu bulaqdan içməli su kimi istifadə edir. Mən ölkə rəhbərliyinə, rayon icra hakimiyyətinə, həm də Rauf bəyə təşəkkür edirəm".


Sahə rəisi Yaqub Qurbanov

**“Azəravtoyol” ASC Tovuz rayonunun 3 böyük kəndində yeni yollar çəkib. Sahə rəisi İlqar Ağayevin “Yeni Müsavat”a bildirdiyinə görə, Tovuzun Ağdam kəndinin 6 kilometr uzunluğunda yolunun asfalt örtüyü yenilənib.**

**O deyib ki, Ağdama çəkilən asfalt yolun eni 6 metr, torpaq yatağının eni 10 metrdi:** “15 yerdə sukeçirici borular qoyulub, başlıqlar tikilib. Boruların diametri 300, 500 və 800-dür. ”Azəravtoyol" ASC rayonun Yuxarı Öysüzlü kəndində uzunluğu 3 kilometr olan torpaq yolun asfaltlanmasını yüksək keyfiyyətlə və sürətlə həyata keçirib. Bu yolun eni 3.5,-4 metrdir".


Fikrət Qasımov

Yuxarı Öysüzlüdəki 1 nömrəli orta məktəbin direktoru Fikrət Qasımov ölkə prezidentinə öz təşəkkürünü bildirib. O, həmçinin Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Tofiq Zeynalova, “Azəravtoyol” ASC-nin rəhbərliyinə kənd sakinləri adından minnətdarlığını söyləyib.


İsa Hüseynov


İlqar Ağayev

**Kənd orta məktəbin müəllimi İsa Hüseynov da əməkdaşlarımızla söhbətdə öz ürək sözlərini deyib:** “Bu yol məsələsi ortaya çıxandan, icrasına başlanana kimi mən şəxsən prosesin şahidi olmuşam. Rauf Arifoğlu yolun və körpünün tikintisi ilə bağlı camaatın xahişini, müraciətini aidiyyəti dövlət qurumlarına çatdırılmasına dəstək oldu. Qısa zamanda onun bu təşəbbüsünə müsbət reaksiya verildi. Çünki bu təşəbbüs xalqın güzəranının yaxşılaşdırılmasına xidmət edir. Fürsətdən istifadə edib, ölkə başçısına kəndimizə göstərdiyi bu qayğıya görə təşəkkür edirəm. ”Azəravtoyol" rəhbərliyi də bu işləri yüksək peşəkarlıqla, həssaslıqla və keyfiyyətlə başa çatdırdı. Başda Saleh Məmmədov olmaqla bu quruma da öz minnətdarlığımı bildirirəm. Tovuzun icra başçısı hörmətli Tofiq Zeynalov iş başlayandan bu günə kimi layihənin icrasını diqqətdə saxlayıb. Allah bu yolun, körpünün tikintisində əməyi, iştirakı, zəhməti olan hər kəsin köməyi olsun".


Əmirxan Əhmədov

**Yuxarı Öysüzlü sakini Əmirxan Əhmədov:** “Kəndin böyüklüyünə baxmayaraq yollarımız bərbad durumda idi. Çox əziyyət çəkirdik. Öz vəsaitimiz hesabına balaca bir körpü düzəltmişdik. Lakin çay güclü axdığından keçmək çətin idi. O da camaatı qane eləmirdi. Bu körpü bir neçə kəndin işini asanlaşdırıb. Əvvəllər rayona gedəndə çox vaxt itirirdik. İndi az zamanda Tovuz şəhərinə gedə bilirik”.

**Bizimlə həmsöhbət olan İlham adlı digər kənd sakini də görülən işlərdən danışıb:** “İllərdir ki, marşrut sürücüsü işləyirəm. Hər gün kəndin bərbad yolları ilə gedirdim. Hərdən mənə yuxu kimi gəlir, indi yollarımız düzəlib. Həqiqətən də iki kəndin camaatı da sevinir. Körpü iki kəndin arasında gediş-gəlişi asanlaşdırdı”.

Sahə rəisi İlqar Ağayev əməkdaşımıza deyib ki, Öysüzlü yolunda 8 yerdə sukeçirici borular qoyulub.

Həmçinin torpaq axınının qarşısını almaq məqsədilə 50 metr uzunluğunda, 4 metr hündürlüyündə bənd tikilib. Tovuzun Hacallı kəndinə də “Azəravtoyol” 3.2 km uzunluğunda yeni asfalt yol çəkib. Yolun eni 6 metr, torpaq yatağının eni isə 10 metrdi. Həmçinin Hacallı kəndinin sakinlərinin xahişi ilə qəbiristanlıq yolunun hamarlanması həyata keçirilib.

Kənd sakinləri bildirirlər ki, bu yol və körpü ölkə prezidentinin Öysüzlü camaatına hədiyyəsidi. Sakinlər “Yeni Müsavat” qəzeti vasitəsilə “Azəravtoyol” ASC rəhbərliyinə, həmçinin Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Tofiq Zeynalova öz təşəkkürlərini söyləyiblər: “Bizim təşəkkür və dualarımız bu işlərdə əməyi, rolu olan hər kəsə çatdırın. İnşallah, bu cür gözəl işlərin davamı olacaq”.

❑ **“Yeni Müsavat”ın**
❑ **Reportyor qrupu**

YENİ MÜSAVAT
N 243 (6857) 22 noyabr 2017

# Parlamentdə 2018-ci ilin dövlət büdcəsi ilə bağlı müzakirələr başladı

## Baş nazirin qatıldığı iclasda Mərkəzi Bank sədri maliyyə bazarındakı vəziyyəti açıqladı; YAP-çı deputat xaricdəki bəzi səfirliklərin bağlanmasını təklif etdi

**Noyabrın 21-də Milli Məclis 2018-ci il üçün dövlət büdcə zərfinin müzakirəsinə başladı. Spiker Oqtay Əsədov deputatları və baş nazir Artur Rasi-zadənin rəhbərliyi ilə plenar iclasa qatılan hökumət üzvlərini salamladıqdan sonra iclasın gündəliyini səsverməyə çıxartdı.**



"2018-ci ilin dövlət büdcəsində neftin 1 barelinin qiyməti 45 dollardan götürülüb". Bunu Milli Məclisin İqtisadiyyat, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə söylədi. Onun sözlərinə görə, müvafiq qurumlarla geniş müzakirələrdən sonra bu rəqəmin üzərində dayanıb. Komitə sədri bildirdi ki, Azərbaycan az borcu olan 10 ölkədən biridir. "Biz borclanmaya getməliyik. Borc almaq Azərbaycana ən müasir texnologiyaların gətirilməsi deməkdir" - komitə sədri əlavə etdi. Bununla belə, bildirdi ki, Azərbaycan hər borcu almayacaq, bunun üçün dövlət başçısının tapşırığı ilə xüsusi strategiya hazırlanır. "Lazım olmayan borclanmaya görə məsuliyyət məsələsi də artırılacaq" - Z.Səmədzadə dedi.

**Komitə sədri dedi ki, əhali ilə banklar arasında yaranmış problemlərin həlli ilə bağlı konsensus olmalıdır.** "Ola bilməz ki, bir tərəf haqlı, digər tərəf haqlısız olsun" - deyən komitə sədri banklarla bağlı məlumat verdi.

**Maliyyə naziri Samir Şərifov çıxışında dedi ki, keçən ilə nisbətən bu il qeyri-neft sektorunun inkişafı 2,5 faiz artıb. Nazir bildirdi ki, cari ilin əvvəlindən başlayaraq, manat ABŞ dollarına nisbətdə 10 faiz möhkəmlənib.** "Azərbaycan investisiyalar üçün etibarlı ölkə olaraq qalmaqdadır" - S.Şərifov bildirdi.

Nazirin sözlərinə görə, 2018-ci il üçün dövlət büdcəsinin gəlirləri 20,127 mlrd. manat, xərcləri isə 20 mlrd. 905,7 mln. manat təşkil edəcək. Beləliklə, dövlət büdcəsinin 778,7 mln. manat kəsirlə icra olunacağı proqnozlaşdırılır. 2018-ci il dövlət büdcəsinin gəlirləri üzrə proqnozun 7,907 mlrd. manatı və ya 39,3%-i Vergilər Nazirliyinin xətti ilə daxilolmaların, 9,216 mlrd. manatı və ya 45,8%-i Dövlət Neft Fondundan transfertin, 2,43 mlrd. manatı və ya 12,1%-i Dövlət Gömrük Komitəsinin xətti ilə daxilolmaların, 574 mın. manatı və ya 2,8%-i isə digər gəlirlərin payına düşür.

"İpoteka kreditləşməsi növbəti illərdə daha da genişləndiriləcək, mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə sosial evlərin tikintisinə önəm veriləcək. Bu məqsədlə dövlət büdcəsindən 250 milyon manat vəsaitin ayrılması nəzərdə tutulub".

**Bunu isə iqtisadiyyat naziri Şahin Mustafayev** söylədi. Nazir bildirdi ki, Mingəçevir sənaye parkında 5 mindən çox yeni iş yerinin açıqlaması nəzərdə tutulur. Bundan əlavə, Masallıda da 30-dan çox layihə reallaşdırılacaq. Ölkədə xalçaçılığın inkişafı məqsədilə 6 rayonda hazırlıq işləri başa çatıb, daha iki rayonda işlər davam edir. Sumqayıtda isə boya maddələrinin istehsalı məqsədilə müəssisələr tikiləcək. Bundan əlavə, fermer və sahibkarlara güzəştli kreditlərin verilməsi məqsədilə bir sıra layihələr nəzərdə tutulub. Eyni zamanda bir sıra rayonlarda yeni aqroparkların yaradılması planlaşdırılır.

**Mərkəzi Bankın (MB) İdarə Heyətinin sədri Elman Rüstəmov** isə dedi ki, sərt xarici şok baş vermədiyi təqdirdə növbəti ildə valyuta bazarında sabitlik qorunacaq. Baş bankirin sözlərinə görə, cari ildə strateji ehtiyatlarımız 12 faiz, Mərkəzi Bankın ehtiyatları isə 31 faiz artıb. Beləliklə, ölkəmizin ehtiyatları 42 milyard dollara çatıb. MB rəhbəri qeyd etdi ki, manat ilin ilin əvvəlindən 4 faiz, son aylarda isə 11 faizdən çox möhkəmlənib. Eyni zamanda Neft Fondundan dövlət büdcəsinə transfertlər 3 dəfə azalıb və ehtiyatlara qənaət edilib.

E.Rüstəmov Dövlət Statistika Komitəsinə istinadən bildirdi ki, 2017-ci ilin 10 ayı ərzində inflyasiya 13 faizdən artıq olub. Ancaq o, inflyasiyanın daha çox xarici amillərlə əlaqədar olduğunu vurğuladı. MB sədrinin sözlərinə görə, son aylar bəzi ərzaq məhsullarının qiymətləri əhəmiyyətli dərəcədə artıb. E.Rüstəmov bildirdi ki, bu artım heyvandarlıq məhsullarında da müşahidə olunub: "Odur ki, bu inflyasiya proqnozlaşdırılırdı".

**Büdcə sənədi ətrafında müzakirələr zamanı çıxış edən deputat Fazil Mustafa paytaxtın yüklənməsinə diqqət çəkdi:** "2018-ci il büdcəsində Bakı şəhəri istisna olmaqla, regionların gəlirləri cəmi 3 faiz proqnozlaşdırılıb. Bir vaxtlar Türkiyədə də belə nümunə var idi və türkiyəli ekspertlər deyirdilər ki, İstanbul böyüdükcə Türkiyə kiçilir. Əslində Bakı da böyüdükcə Azərbaycan da kiçilməyə başlayır". F.Mustafa xaricdə təhsil alan tələbələrin təqaüdünün kəsilməsindən, tələbə yataqxanaları ilə bağlı problemdən də danışdı. Paytaxtin durumundan danışan deputat "Bakı bu qədər yükün altından çıxarılmalıdır. Təklif edirəm ki, səlahiyyətlilər Bakının ətrafında səyahət etsinlər"-deyə hökumətə çağırış etdi.

Deputat elmə ayrılan xərclərin azlığından şikayətləndi.

**Komitə sədri, YAP icra katibinin müavini Siyavuş Novruzov Rəşt-Astara dəmir yolu xəttinə dəstək verilməsini təklif etdi. "Bu xəttin işə düşməsi Naxçıvanın qismən də olsa, blokadadan çıxması deməkdir"-deyə, o bildirdi. S.Novruzov bildirdi ki, rayonlar arasında rəqabət prinsipini həyata keçirə bilərik:** "Necə ki, cərimələrin 25 faizi ayrı-ayrı qurumlarda saxlanılıb. Bu məsələdə də kim ki, öz büdcəsini tamamilə təmin edir, yığdığı vəsaitin də müəyyən faizi o rayonda saxlanılsın". YAP-çı deputat ayrı-ayrı obyektlərin saxlanılması üçün mərkəzi büdcədən vəsait ayrılmasındansa, həmin obyektlərin işləməsi, əlavə gəlir gətirməsi istiqamətində addımlar atmağa çağırdı. "Əhali ilə Mərkəzi Bank arasında anlaşma gedir, ortada qazanan kommersiya banklarıdır. Onlar on illərlə qazanıblar, indi buyursunlar, vətəndaşa kömək etsinlər. 13 faizə depozit götürür, vətəndaşa 28-30 faizlə kredit verir. Banklar vətəndaşı dövlətdən narazı salmasınlar"-deputat əlavə etdi.

**S.Novruzov hökumətə xatırlatdı ki, bütün dünyada seçki ilində siyasi partiyalara ayrılan vəsait digər illərdən çox olur:** "Təklif edirəm ki, bizdə də siyasi partiyalara ayrılan vəsait artırılsın". S. Novruzov Azərbaycanın xaricdəki bəzi səfirliklərinin bağlanmasını da təklif edib:"Xarici ölkələrdə fəaliyyət göstərən müəyyən səfirliklərlə bağlı məsələ götür-qoy edilməlidir. Hansı ölkədə lazımdır onlar bağlanır, hansında lazım deyil orda qalır. Lakin biz səfirlikləri lazım olan ölkələrdə deyil, lazım olmayanda bağlamalıyıq".

**Deputat Aqiyə Naxçıvanlı** isə təklif etdi ki, 3 yaşına qədər uşağa olan müavinət artırılsın və bu məbləğ 3 yaşın tamamına qədər azaldılmasın. Xanım deputat gənc həkim və müəllimlərə də güzəştli ipoteka verilməsini zəruri saydı.

**Deputat Zahid Oruc öncə hökumət nümayəndələrinə ünvanlı tənqidlər səsləndirdi:** "Bir aydır Azərbaycanın əsas sənədi təqdim olunub. Amma mən hökumət nümayəndələrinin efirdə bu sənədlə bağlı geniş diskussiyalarının şahidi olmamışam". Deputat dövlət komitələri və nazirliklərin bəzilərinin ləğv edilməsini zəruri saydı, bu mənada Gürcüstan nümunəsinə diqqət çəkdi. Z.Oruc ardınca Beynəlxalq Bank mövzusuna toxundu. "Maliyyə naziri Samir Şərifov çıxışı zamanı Beynəlxalq Bank haqqında ağrılı məsələlərə toxunub. Bilirik ki, Eldar Mahmudovun bir sıra əməlləri nəticəsində bu bank bu vəziyyətə gəlib. Bankın hesabatlarında bəzi problemləri görürük. Ancaq hesab edirəm ki, bununla bağlı daha dolğun informasiyalar verilməlidir. Bu gün 2 milyon nəfərin 1.8 milyard problemli krediti var. Ancaq təkcə Beynəlxalq Bankın 2.4 milyard dollar problem öhdəlikləri var. Bu isə o, deməkdir ki, dövlətə vətəndaşlardan daha çox Beynəlxalq Bank zərər vurub. Mən çox arzulayıram, bununla bağlı hökumətdən geniş açıqlamalar verilsin".

**Deputat Məlahət İbrahımqızı şəhid ailələrinin sığortası ilə bağlı hökumətə müraciət etdi:** "Mən bilmək istəyirəm, şəhid ailələrinin sığorta pulu dövlət büdcəsində nəzərdə tutulubmu? Artıq bu məsələ Konstitusiya Məhkəməsinə qədər gedib çıxıb".

**Deputat Qüdrət Həsənquliyev büdcə vəsaitləri və onun ayrılmasına tənqidi yanaşdı:** "10 milyonluq ölkə üçün 20 milyardlıq büdcənin ayrılması o qədər də böyük vəsait deyil. Eyni zamanda büdcə vəsaitlərinin bölüşdürülməsi ədalətli deyil". O, daha sonra əlil və şəhid ailələrinin mənzillə təmin olunması üçün cəmi 27,5 milyon manat vəsait ayrılmasını doğru saymadı, müharibə vəziyyətində olan ölkə üçün bu vəsaiti yetərli hesab etmədiyini bildirdi. Eyni zamanda deputat qəzalı vəziyyətdə yaşayan qaçqın və köçkünlər üçün mənzil tikintisi üçün ayrılan vəsaitin artırılmasını zəruri saydı: "Mehriban xanım birinci vitse-prezident təyin olunandan sonra bu sahəyə ciddi diqqət yetirilir, yeni yaşayış kompleksləri tikilir". Ardınca deputat qaçqın-köçkünlərin problemlərinin həlli üçün digər tədbirlərin görülməsini vacib saydı: "Allah insana nə qədər ömür verir ki? Bu insanlar 25 ildir qəzalı evlərdə yaşayırlar. Mən hökumət üzvlərinə müraciət edirəm, qaçqınlara, şəhid ailələrinə mərhəmətlə yanaşsınlar, onlara ayrılan vəsaiti artırsınlar!" **Deputat Naxçıvana ayrılan investisiyalardan da bəhs etdi.** "Əlbəttə, cənab prezidentin dəstəyi olmasa, Naxçıvan ayaq üstə dayana bilməzdi. Ancaq mən təklif edirəm ki, Naxçıvanda sənayenin inkişaf etdirilməsi ilə bağlı dövlət proqramı qəbul olunsun!"

**Deputat Fərəc Quliyev isə hərbi sahəyə diqqət yetirməyə çağırdı:** "Bizim büdcədən barıt iyi gəlməlidir. Biz işğal altındakı ərazilərimizdəki sərvətlərimizdən istifadə edə bilmirik. Üstəlik də düşmənlər bizim sərvətlərimizi talayıb aparırlar. Biz onların bu talanına qarşı mübarizə aparmalıyıq və bu mübarizə büdcəmizdə də əksini tapmalıdır".

**Deputat Hikmət Babaoğlu dedi ki, son zamanlar autizm xəstəliyi geniş yayılıb:** "Əgər sağlam gələcəyimizi düşünürüksə bu problemin həlli üçün mərkəzlər yaradılmalı, dövlət autizm xəstəliyinə düçar olmuş uşaqların müalicəsinə, rebilitasiyasına ciddi dəstək verməlidir".

Deputat Aydın Mirzəzadə təhsil fondunun yaradılmasını, həmçinin bölgələrdə sosial evlərin tikilməsini təklif etdi.

**Deputat Qənirə Paşayeva Tovuz rayonunun problemlərinə diqqət çəkdi:** "Tovuz cəbhə bölgəsində yerləşir və çox böyük vəsaitlər ayrılmadan problemləri həll etmək olar. Tovuzun iki addımlığındakı 20 mindən artıq əhalinin içməli suyu yoxdur, insanlar pulla su alır. Mən Qorxmaz müəllimdən xahiş edirəm, bununla bağlı layihə həyata keçirilə və 20 minlik əhalinin problemini həll etmək olar. Tovuzun çox ciddi şəkildə su problemi var. Mən "AzərSu"dan xahiş edirəm ki, Tovuzdan gələn bu təklifləri dəstəkləsin!"

**Daha sonra Q.Paşayeva kənd təsərrüfatı nazirinə müraciət etdi:** "Tovuzda əkin sahələri susuzluqdan yandı". O, "Azəriqaz"ın rəhbərinə müraciətlə dedi ki, gələn il qaz çəkilməyən 48 kənddən yalnız 3 kənd qazlaşma planına salınıb. Təhsil naziri Mikayıl Cabbarova xitab edən xanım deputat bildirdi ki, Tovuzda 14 məktəb qəzalı vəziyyətdədir və bu sahəyə diqqət ayrılsa, çox yaxşı olar.

**Deputat Vahid Əhmədov çox vacib mövzulara toxundu. O, vəsaitlərin qənaətlə xərclənməsi və nəzarətin təmin olunması üçün Neft Fondundan transfertin miqdarını müəyyən etməyi zəruri saydı. Deputat qiymət artımına da diqqət çəkdi:** "Niyə qiymətlər sürətlə dəyişir? Yağın qiyməti elə dəyişilməz qalıb, heç nə dəyişməyib. Qiymət məsələsində Azərbaycan dövlətinin yol xəritəsi olmalıdır".

**V.Əhmədov təklif etdiyi qanun layihəsinə diqqət çəkdi:** "Əgər ölkədə monopoliya yoxdursa, niyə Rəqabət Məcəlləsini qəbul etmirsiniz? İndi baxıram ki, Rəqabət Məcəlləsini 2021-ci ilədək qəbul etmək nəzərdə tutulur. Niyə biz 4 il də gözləməliyik? Mən baxıram ki, Rəqabət Məcəlləsinin qəbuluna nə Prezident Administrasiyası, nə Nazirlər Kabineti, nə də Milli Məclis maraqlı deyil. Çünki bilirlər ki, bu məcəllə qəbul olunsa, inhisarçılığa mane olacaq".

"Özü də bu nə siyasətdir? Bankları bağlamaq siyasəti götürüblər. Biz heç vaxt bunun tərəfdarı olmamışıq" - V.Əhmədov əlavə etdi.

**Müzakirələr bu gün davam edəcək.**

❑ Elşad PAŞASOY

# Lavrovun Bakıdan anti-Qərb mesajları

## Rusiyanın baş diplomatının bəyanatının arxasında nələr dayanır?

**Rusiyanın erməni əsilli xarici işlər naziri Sergey Lavrov Bakıya iki gün öncəki səfərində ADA Universitetində tələbə və müəllim heyəti qarşısında çıxışının böyük hissəsini Qərbin tənqidinə həsr edib. Lavrov bildirib ki, başda ABŞ olmaqla, bir qrup Qərb ölkələrinin beynəlxalq həyatın bütün istiqamətləri üzrə öz üstünlüyünü qoruyub saxlamaq cəhdi dövlətlərarası ünsiyyətin həqiqətən demokratikləşməsi, bərabərhüquqluluq, qarşılıqlı hörmət, bir-birinin maraqlarının nəzərə alınması prinsipləri əsasında inkişafı yolunda əsas maneə olaraq qalır: "Bundan bir neçə əsr əvvəl "tarixi Qərb" bütün dünyaya rəhbərlik edirdi, "musiqi sifariş verirdi" və əlbəttə, bir sıra Qərb ölkələrinin rəhbərliyində, yəqin ki, genetik olaraq kök salmış bu adətlərdən əl çəkmək çox çətindir. Buna görə onlar əvvəlki kimi öz iradələrini diktə etmək, bizim torpaqlarımızda başqaları hesabına öz rifahlarını təmin etmək istəyirlər. Şübhəsiz, suveren dövlətlərin daxili işlərinə müdaxilə, BMT TŞ-dən yan keçməklə gücdən istifadə, birtərəfli sanksiyaların tətbiq edilməsi, öz qanunvericiliklərinin eksterritorial tətbiqi, "soyuq müharibə" institutlarının müasir reallıqlara uyğunlaşdırılması cəhdləri-bütün bunlar əsasən beynəlxalq hüququn və bir çox çoxtərəfli institutların rolunun azalmasına gətirib çıxarıb, qlobal və regional təhlükəsizliyə, sabitliyə ciddi ziyan vurub".**


Sergey Lavrov

Nazirin fikrincə, birqütblü dünya modeli qurmaq cəhdləri xaos və qeyri-müəyyənliyin artmasına gətirib çıxarıb. Bununla birlikdə, Lavrov deyib ki, bu gün yeni, daha ədalətli və demokratik çoxqütblü dünya sisteminin qurulması prosesi gedir. Lavrov belə fəaliyyəti üçün meydan kimi BRHÇC, ŞƏT, Avrasiya İqtisadi Birliyi, KTMT, MDB və digər beynəlxalq təşkilatları göstərib.

**Politoloq Qabil Hüseynli hesab edir ki, Lavrov Azərbaycanda bu cür bəyanatlar verməklə yeni soyuq müharibə dövrünün başlandığını nümayiş etdirir. Bəyanatın verilməsi yerinin də Azərbaycan seçilməsi məqsədlidir. Rusiyanın baş diplomatı bununla Qərbə Bakıdan meydan oxumaq iqtidarında olduqlarını, buraların onların nüfuz dairəsində olduğunu nümayiş etdirmək istəyib:** "ABŞ-a mesaj vermək istəyir ki, bu bölgədə hökmran ABŞ yox, Rusiyadır. Lavrov mesaj vermək istəyir ki, dünyanın təkqütblü olmasına imkan vermək niyyətində deyillər, Rusiyanın da ətrafında qüvvələr, dövlətlər var. Avrasiya İttifaqının, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının, MDB-nin adını çəkməsi təsadüfi deyil. Bununla Lavrov demək istəyir ki, sizə alternativ qüvvə kimi artıq formalaşmış birliklər var və burada lider Rusiyadır, Qərbə qarşı dayana biləcək həddə strukturlaşmışıq, bizimlə hesablaşmağa məcbursunuz. Çünki artıq bizim ətrafımızda həm siyasi, həm hərbi güc var, bu güc vasitəsilə Qərbə qarşı dayana biləcək hala gəlmişik. Xüsusilə Avrasiya İttifaqının adını çəkməsi təsadüfi deyil. Bununla Lavrov Avrasiya İttifaqını genişləndirmək, oraya Azərbaycanı da cəlb etmək və bu qurumu daha mükəmməl hala salmaq istəyində olduqlarını nümayiş etdirib. Zənnimcə, burada Azərbaycanı bir şirnikləndirmə niyyəti də güdülüb. O da bundan ibarətdir ki, Azərbaycana xatırlatmaq istəyiblər ki, Rusiyanın orbitində olan ittifaqa qoşulmaq əlavə güc, imkanlar, dəstək əldə etmək imkanları əldə etməkdir və sair.

Halbuki bu bəyanatların və mesajların məhz Azərbaycandan irad edilməsi Azərbaycan üçün əslində o qədər xoş olmayan məqamdır. Azərbaycandan Rusiyanın xarici işlər nazirinin Qərbə mesajlar vermək metodu uğurlu hesab edilə bilməz.

Sergey Lavrov həm də bununla keçmiş SSRİ məkanında olan dövlətlərə yönəlik mesajlar verib. Bununla onlara demək istəyir ki, siz Rusiyanın formalaşdırdığı qütbdəsiniz və belə də qalmalısınız".

**Politoloq vurğuladı ki, Rusiyanın dünyanın ikiqütblü olması istəyinin reallaşması mümkün deyil:** "Mən zənn etmirəm ki, Bakıdan verilən bəyanat dünyanın ikiqütblü dünyaya çevrilməsinin bünövrəsini qoya biləcək və dünya bundan sonra məhz həmin ikiqütblü dünya kimi inkişaf edəcək. Bu, mümkün deyil. Rusiya getdikcə zəiflədiyi bir zamanda onun ətrafında ciddi bir alyansın yaranması asan məsələ deyil. Sergey Lavrovun Qərbə nümayiş etdirdiyi birliklərin sırasına nəzər saldıqda da həmin dövlətlərdən ibarət ikinci dünya qütbünün formalaşmasının mümkün olmadığı aydın olur. İqtisadiyyatı, hərbi gücü zəif olan Orta Asiya respublikaları, acınacaqlı durumda olan Ermənistan, elə də böyük imkanları olmayan Belarusdan ibarət alyansı Rusiya öz ətrafında hansısa adlar altında toplamaqla Qərbə qarşı təsirli dünya qütbü yarada bilməz. Adını çəkdiyim ölkələrin cəminin gücü, dünyadakı proseslərə təsir imkanları ABŞ-ın öz orbiti ətrafında topladığı Avropa dövlətlərinin ən zəifinin gücündən zəifdir. O dövlətlər öz problemlərini həll etməkdə çətinlik çəkirlər, o ki qaldı dünya gücü formalaşdırsınlar.

Məncə, Lavrovun sözügedən mühazirə xarakterli çıxışı həm də Rusiyanın dünyada təklənmək qorxusundan yaranmış vəziyyətə şərti refleks reaksiyası xarakteri daşıyır. Çünki beynəlxalq aləmdə Rusiyanın mövqeyi getdikcə zəifləyir. Lavrovun tələbələr qarşısında mühazirə xarakterli çıxışı elə tələbə səviyyəsində oxunmuş mühazirə kimi yaddaşlarda qalacaq".

❑ **Etibar SEYİDAĞA**

# Azərbaycan və Rusiya müxalifəti: fərqli və ortaq cəhətlər

## Ekspertlər hesab edir ki, hər iki dövlətin müxalifətində yeni simalara və yeni ideyalara ehtiyac var

**Gələn ilin martında Rusiyada, oktyabrında Azərbaycanda keçiriləcək prezident seçkiləri qonşu ölkələrin müxalif düşərgələrinin hazırkı durumda bir-biri ilə müəyyən bağlılıqlarını ortaya çıxarıb. Şimal qonşumuzda da müxalifət rəqibinin müəyyən basqıları qarşısında ciddi zəifləyib, hakimiyyətə qarşı güclü alternativ deyil, Azərbaycanda da...**

Gələnilki seçkilərlə bağlı Azərbaycan müxalifəti kimi Rusiya müxalifəti artıq iddialarını irəli sürməyə başlayıb. İki ay öncə "Yabloko" fraksiyasının rəhbəri Qriqori Yavlinskinin ilk namizəd kimi prezidentliyə iddiasını açıqlaması, həmin ərəfədə Azərbaycan prezidentliyi uğrunda bəzi şəxslərin namizədliklərini açıqlamaları sanki hər iki ölkənin müxalif düşərgəsinin bir hərəkət etdiyini göstərir. Doğrudur, indiyə qədər Azərbaycan və Rusiya müxalifəti arasında heç zaman yaxın əlaqələr olmayıb. Amma mövcud situasiya onların özlərindən asılı olmayaraq aralarındakı oxşar durumu üzə çıxarır.

Siyasi ekspertlərin hər iki ölkənin demokratik camiəsinin mövcud durumu ilə bağlı fikirləri müxtəlifdir. Toparlanarlarsa, bir birlik ətrafında birləşərlərsə, seçkilərdə uğur qazanmaq imkanlarının olması barədə də fikirlər var, bunun əksini deyənlər də az deyil. Digər tərəfdən, Rusiyada martın 18-də keçiriləcək seçkilərdə müxalifətin qazana biləcəyi hər hansı bir uğurun Azərbaycana da təsirsiz ötüşməyəcəyi bildirilir.

**Qərb Universitetinin Tətbiqi Politologiya Mərkəzinin rəhbəri Elxan Şahinoğlu bildirdi ki, Azərbaycanda olduğu kimi Rusiyada da müxalifət rəngarəngdir:** "Əsasən 3 müxalif qrupundan danışmaq olar. Birinci qrupa liberal qüvvələri aid etmək olar. İkinci qrupu "cib müxalifəti" adlandırmaq olar, bura Gennadi Züqanovun rəhbəri olduğu Kommunist Partiyasını və Vladimir Jirinovskinin lideri olduğu Liberal-Demokratlar Partiyasını aid etmək olar. Üçüncü qrupda isə rus millətçiləri və şovinistləri yer alıblar. Rusiyada liberal müxalifət son illər xeyli zəifləyib. Bunun obyektiv və subyektiv səbəbləri var. Liberal qüvvələrin ən böyük problemi Azərbaycanda olduğu kimi birləşə bilməmələridir. Elə ona görə də hakimiyyət üçün kiçik liberal partiyalar, qruplar və liderlər təhlükə yaratmır. Züqanov və Jirinovski isə Rusiya prezidenti Vladimir Putin üçün heç bir təhlükə vəd etmir. Onların davamlı məğlubiyyətləri rəsmiləşib. Putinə təhlükə yarada biləcək qüvvələr sistemdən kənardır. Sistemdən kənar müxalifət seçkidə iddialı olmasa da, mitinq və küçə yürüşləri ilə Putinə əlavə problemlər yaradır. Rusiyanın liberal müxalifəti vahid namizəd ətrafında birləşsə, Putinə qarşı güclü müqavimət təşkil edə bilər. Rusiyada baş verənlər hər yerdə olduğu kimi Azərbaycanda da diqqətlə izlənilir və müvafiq nəticələr çıxarılır. Ancaq bu o demək deyil ki, Rusiyada müxalifət liderinin qələbə şansı artsa, bu eyni ildə Azərbaycanda keçiriləcək prezident seçkisinə də sirayət edəcək. Ona qalsa bizə daha yaxın olan Gürcüstan və Ukraynada müxalifət son illərdə bir neçə dəfə hakimiyyətə yiyələndi. Ancaq bunun Azərbaycandakı siyasi proseslərə təsiri olmadı. Səhv etmirəmsə keçmiş baş nazir və müxalifət təmsilçilərindən Pənah Hüseynov deyirdi ki, Azərbaycan müxalifəti keçmiş SSRİ məkanında ən güclü müxalifətdir. Bu sözlərin üstündən illər keçib. Mənə maraqlıdır ki, Pənah Hüseyn indi bu haqda nə düşünür? Rusiya və ya Azərbaycan olsun, hər iki dövlətin müxalifətində yeni simalara və yeni ideyalara ehtiyac var. 1990-cı illərin şüarları ilə uzağa getmək olmaz".


Aleksandr Navalni

**Politoloq Natiq Miri son vaxtlar meydana çıxan Aleksandr Navalni faktorunun getdikcə əhatə dairəsini Rusiyada genişləndirdiyini söylədi:** "İctimai rəydə Navalninin üstünlüyü açıqca hiss olunur. Xüsusilə, o, Uzaq Şərq regionlarında çox ciddi surətdə dirəniş göstərməklə, həm də təşkilatlanmağa başlayıb. Artıq Rusiya daxilində olan türk respublikalarında, xüsusilə Tatarıstanda ciddi təşkilatlanma prosesi baş verir. Bu hadisələr təsadüfən ortaya çıxmayıb. Doğrudur, Navalnının korrupsiya əleyhinə apardığı mübarizə ictimai rəydə getdikcə ciddi dəstək alır. Bu dəstəklər çoxaldıqca Putin rejiminə qarşı etirazlar da artmağa başlayacaq. Biz artıq bunun təzahürlərini hiss edirik. Yüzlərlə Navalnı tərəfdarının regionlarda həbs edilməsi göstərir ki, Kreml çox narahatdır. Bu narahatlığın əsas səbəblərindən biri də Navalnıya qarşı ciddi arqumentlərin ortaya qoyula bilməməsi, getdikcə onun ictimai rəydə ciddi nüfuz qazanması, ən nəhayət, bu siyasi güclərin arxasında böyük Qərb dəstəyinin olmasıdır. Putin hakimiyyəti anlayır ki, bu seçkilərdə ABŞ-ın dəstəyi ilə Kremlin başı ağrıdılacaq. Bu proseslərdə Navalnı və Yavlinski tərəfdarlarını gözardı etmək mümkün olmayacaq. Çünki getdikcə güclənən gənc Rusiya müxalifəti dövriyyədədir. Bu da gənclərin getdikcə bir gənc siyasi lider və ideologiya ətrafında birləşəcəkləri ehtimallarını artırır. Bu da gələcəkdə avtoritar Rusiyaya çox ciddi başağrısı vəd edir".

**Politoloq Rusiyadakı proseslərin Azərbaycanda müşahidə olunmadığına da diqqət çəkdi:** "Azərbaycanda hər hansı bir toparlanma, yaxud önə keçə biləcək bir siyasi güc mərkəzi hələ ki ortalıqda yoxdur. Bu prosesin təzahürlərini də müşahidə edə bilmirik. Azərbaycanda olsa da, çox imkanlı şəxslərin ortalığa çıxması güclü bir alternativin mövcud ola bilmə ehtimalı var. Əgər belə bir namizəd olarsa, maliyyə mənbələrinin də kifayət qədər geniş olacağını düşünsək, hakimiyyətə ciddi başağrısı yarada bilər".

❑ **Cavanşir ABBASLI**

# Eldar Mahmudovun şərti var: istintaqa gizli gələcək

## Sabiq təhlükəsizlik naziri ətrafında müəmma davam edir; istintaqa çağırılan MTN-in sabiq şefinin niyə vəkili yoxdur?

**Sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudov artıq iki dəfə Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində ifadə verib. Yayılan məlumatlarda qeyd olunur ki, idarədə E. Mahmudov əmisi oğlu, köməkçisi, MTN-in Antiterror Mərkəzinin şöbə rəisinin müavini vəzifəsində işləmiş polkovnik-leytenant Vüqar Mahmudova açılan cinayət işi üzrə ifadə verib.**

Yada salaq ki, V.Mahmudova dövlət əmlakının mütəşəkkil dəstə tərkibində külli miqdarda mənimsəmə, ayrı-ayrı vətəndaşların əmlakını hədə-qorxu ilə tələb etmə, əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericiliyin tələblərini kobud surətdə pozma, vəzifə saxtakarlığı, eləcə də tamahkarlıq və şəxsi maraqlarına görə qulluq mövqeyindən sui-istifadə əməllərinə görə ittihamlar elan olunub.

"Yeni Müsavat"a daxil olan məlumata görə, Eldar Mahmudov istintaqa çağırılsa da, onun hələ Vüqar Mahmudovla üzləşməsi baş tutmayıb. Eyni zamanda əldə etdiyimiz məlumata görə, istintaq prosesində Eldar Mahmudovun hələ ki statusu da müəyyən edilməyib. Maraqlıdır ki, Eldar Mahmudovun istintaq idarəsinə nümayəndəsiz gəldiyi bildirilir. Onun istintaq idarəsindən çıxdığı zaman görüntülənən fotolarında da bu, açıq şəkildə görünür. Elə fotolardan söz düşmüşkən, onu da qeyd edək ki, məlumata görə, Eldar Mahmudovu yayılan görüntülər çox narahat edib. Bu səbəbdən o bildirib ki, bundan sonra ifadə vermək üçün idarəyə yalnız gizliliyi təmin olunduqdan sonra gələcək.



**Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan hüquqşünas Əsabəli Mustafayev bildirib ki, Eldar Mahmudova ittiham verilmədiyi üçün onun vəkilinin olmaması mümkündür:** "Əgər ona ittiham elan olunmayıbsa, görünür, vəkilə də bir o qədər ehtiyacı yoxdur. Mətbuatda yazılan məlumatlara görə, Mahmudov istintaqda şahid qismində dindirilib. Belə olan halda isə vəkil yox, nümayəndə ola bilər. İstənilən adam nümayəndə kimi dindirilən şəxsin yanında gedə bilər. Ancaq bu da şəxsin öz istəyindən asılıdır. Əgər şəxs şahid kimi dindirilirsə və ehtiyac hiss edirsə, nümayəndə gətirə bilər. Eldar Mahmudov hüquq-mühafizə orqanlarında işləyib. Güman ki, hansısa nümayəndənin yanında olmasına ehtiyac duymayıb. Hələ ki məlum deyil ki, Eldar Mahmudova qarşı ittiham elan edilib, yoxsa yox. Sadəcə olaraq, söylədiklərim məntiqə əsaslanır ki, yəqin o, şahid qismində dindirilir. Əgər ona ağır cinayət elan olunsa və hesab edilsə ki, Mahmudov hansısa səbəbdən öz hüquqlarını müdafiə etmək qabiliyyətində deyil, o zaman ona dövlət hesabına vəkil təyin oluna bilər. Lakin bir çox hallarda şəxsə hətta ittiham elan olunduğu zaman belə o, düşünür ki, özü hüquqlarını daha yaxşı müdafiə edər. Ona görə də məcburi deyil ki, kiməsə mütləq vəkil təyin olunsun. Qeyd etdiyim kimi, bu, təqsirləndirilən şəxsin öz istəyindən asılıdır. Şəxsə məcburi vəkilin təyin olunması halları da var. Bu məqam isə qanunda birbaşa olaraq göstərilib. Lakin burada da Eldar Mahmudova xas bir amil yoxdur. Qanunda qeyd olunur ki, şəxsin əgər fəaliyyət qabiliyyəti məhduddursa, özünü hansısa digər səbəblərdən müdafiə etmək qabiliyyətində deyilsə, o zaman məcburi nümayəndə təyin edilir. Şəxs bundan imtina etsə də nümayəndə təyin olunur. Eldar Mahmudov isə bu kateqoriyaya aid deyil".

**Hüquqşünas düşünmür ki, Eldar Mahmudov həbs olunacaq:** "Düşünürəm ki, əgər onu həbs etmək fikirləri vardısa, bunu prosesin başlanğıcında edərdilər. Çünki onun tutduğu vəzifə, əlində olan vasitələrin istintaqa təsir etmək imkanları var. Hələ kənardan müşahidə etdikdə bu, açıq formada görünür. Anlaşılmazdır ki, onun rəhbərlik etdiyi şəxslər həbsdə olduğu halda, özü azadlıqda gəzir. Bu vaxta qədər həbs olunmadığı üçün bundan sonra da onu nəyin gözlədiyini söyləmək çox çətindir. Mənim şəxsi fikrimə görə, bu proseslərin də sonunda həbs olunmayacaq".

Təhlükəsizlik üzrə ekspertlər də bildirirlər ki, Eldar Mahmudovun məhz indiki məqamda istintaqa çağırılması bir çox suallar yaradır. Xüsusilə də onun statusunun müəyyən olmaması, proseslərin hansı zəmində inkişaf edəcəyini bəlirləməyi çətinləşdirir. Ekspertlərə görə, Eldar Mahmudovu qoruyan "əl" yenə də fəaliyyətdədir və onun həbs edilməsi bir o qədər real deyil. Görünən budur ki, "MTN işi" üzrə həbs edilənlərin ardınca Eldar Mahmudovun Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsinə çağırılması və mətbuatda yazılanlara görə, 5 saat dindirilməsi prosesdə yeni mərhələnin başlanğıcıdır.

❑ **Əli RAİS**

# Akif Çovdarovun bəraət istəməsinin sirri

## Həbsdəki generalın rahatlığının və azadlıq ümidinin səbəbi...

**Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin həbsdə olan sabiq rəisi, general-mayor Akif Çovdarovun və digərlərinin barəsindəki hökmdən apelyasiya şikayəti verilib.**

Bu barədə APA-ya A. Çovdarovun vəkili Kamandar Nəsibov məlumat verib. O qeyd edib ki, əmlakı dövlətin xeyrinə müsadirə olunan zərərçəkmişlər də apelyasiya şikayəti verib. Şikayətdə təqsirləndirilən şəxslərə bəraət verilməsi istənilir. İşə yaxın vaxtlarda Bakı Apelyasiya Məhkəməsində baxılacaq.

Məlumat üçün bildirək ki, oktyabrın 30-da Bakı Hərbi Məhkəməsinin sədri Həbib Həsənovun sədrliyi ilə keçirilən prosesdə Akif Çovdarov və digərlərinə hökm elan olunub. Məhkəmənin hökmü ilə Akif Çovdarov 12 il müddətinə azadlıqdan məhrum edilib.

Maraqlıdır ki, sabiq təhlükəsizlik naziri Eldar Mahmudov istintaqa çağırılandan sonra Akif Çovdarov daha israrla bəraət istəyir. Məhkəmə iclaslarında Mahmudovun adını çəkməsə də, görünən odur ki, sabiq nazirin həbs təhlükəsinin yaranması Çovdarovda bir ümid yaradıb. Törətdiyi əməllərinə rəğmən, bəraət istəyən Çovdarov sanki nümayiş etdirir ki, onun heç bir günahı yoxdur. Çovdarovun məhkəmədə son sözünə də diqqət etsək, bu kimi arqumentlərin izini görmüş olarıq. O, son sözündə bildirmişdi ki, hər zaman dövlətinə sadiq olub: "Lakin "əgər dövlətim və hakim məni cəzalandırarsa, mən bunu xidmətimin davamı kimi qiymətləndirəcəyəm" deyən Çovdarov indiki məqamda həbsdə qalmaq istəmir.



**Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan hüquqşünas Əkrəm Həsənov bildirib ki, Çovdarovun cinayət əməlləri hər kəsə məlumdur:** "Bir məsələ də var ki, Akif Çovdarov məhkəmə iclaslarında da bildirirdi ki, guya heç bir günahı yoxdur. Özünü indi də günahkar hesab etmir və buna görə də Apelyasiya Məhkəməsinə müraciət edir. Açığı, onun bu cür addım atacağı gözlənilən idi. Təbii ki, özünü günahkar hesab etməyən şəxs Apelyasiya Məhkəməsinə müraciət edib, kəsilən ilin azaldılmasını istəyə bilməzdi. Bu baxımdan onun bəraət istəməsi təbii haldır. Onun günahkar olub-olmaması isə artıq hər kəsə məlumdur. İndiyə qədər əziyyət verdiyi sahibkarlar və digər insanlar da mətbuat qarşısına çıxıb, başlarına gələnləri danışıblar. Ona görə də bilənlər yaxşı bilir ki, o günahkardır, ya yox. Ümid edirəm ki, Eldar Mahmudovla bağlılığından asılı olmayaraq, onun bəraət arzusu baş tutmayacaq. Bəraət istəmək və almaq qanunla mümkündür. Bəraət odur ki, bu adamın heç bir günahı yoxdur və birinci instansiya məhkəməsi düzgün qərar verməyib. Çovdarovun isə günahları söylədiyim kimi göz qabağındadır. Bu barədə hansısa müzakirə açmağa ehtiyac yoxdur. Belə olan halda hansı bəraətdən danışmaq olar? Sadəcə olaraq, Çovdarov "göylə getməyə" çox öyrəşib. Ona görə də özünü bu cür aparır və bildirir ki, mənim günahım yoxdur. Bu ona bənzəyir ki, bir adam vurub kimisə öldürür və 15 il iş alır. Sonra da durub apelyasiya şikayəti verir ki, mən yox, başqası öldürüb. Sübut olunsa ki, doğrudan da başqası öldürüb, o zaman şəxsə bəraət verilməlidir. İndi Çovdarov da bəraət almaq üçün birinci instansiya məhkəməsində verilən qərarın əksini sübut etməlidir. O, Azərbaycan vətəndaşıdır və bu cür tələblə çıxış etmək hüququ var. Ancaq ehtimal etmirəm ki, Çovdarov bəraət alıb, azadlığa çıxacaq".

**Ekspert Eldar Mahmudovla bağlı da fikir söyləyərək qeyd edib ki, sabiq nazir heç də bütün qanunsuz əmrləri verə bilməz:** "Çovdarovun qanunsuz əmrləri icra etmək ixtiyarı yoxdur. Əmr qanunsuz olubsa, onu necə icra etmək olar axı? Əgər nazir qanuna uyğun olmayan əmrlər veribsə, ərizəsini yazıb, işdən çıxardı. Qanunsuz əmrə tabe olmamalısan. Bu adam hərbi xidmətdə deyildi ki... İstənilən halda vəzifədən gedə bilərdi. Bildiyim qədər Çovdarovun xeyli sayda qanunsuz əməllərdə əli var. İndi bunların hamısını bəyəm Eldar Mahmudovun göstərişi ilə edib? Hesab edirəm ki, burada onun özünün də özbaşına etdiyi əməllər az deyil. Hər halda Çovdarov da yüksək vəzifə sahibi idi. Belə çıxır ki, elə Mahmudov oturub otağında bütün günü qanunsuz göstərişlər verirmiş. Buna nazirin heç fiziki baxımdan da vaxtı çatmazdı. Ona görə də söyləmək olar ki, Mahmudovun tabeliyində olanlar bəzi cinayətləri özləri törədiblər və hər birini də məsuliyyətə cəlb etmək lazımdır. Bəlli olduğu kimi, hazırda Mahmudovun özü də istintaqa çağırılıb, ifadəsi alınır. Məhkəmə qərarı olmadan isə biz kimsəni təqsirli hesab edə bilmərik. Ancaq eyni zamanda çox təəccüblü olardı ki, MTN-də bu qədər qanunsuz əməllər olduğu halda, Eldar Mahmudovun bunlarda heç bir rolu olmasın. Ona görə də ehtimal edirəm ki, Mahmudovun da yəqin ki, günahı var. Burada bir məsələ də var ki, Eldar Mahmudov cinayətkardısa belə, o, adi cinayətkar deyil. Həm də adi məmur da olmayıb. Xarici təcrübə göstərir ki, təhlükəsizlik orqanlarının rəhbərlərinə fərqli münasibət var. Burada dövlət maraqlarının, sirlərinin olması mümkündür. Ona görə də Mahmudovun həbs olunacağını söyləmək də çətindir. Düşünürəm ki, Akif Çovdarov və Eldar Mahmudov kimi adamlar mənəvi cəhətdən xeyli cəza çəkiblər. Çünki hər zaman rahat həyat içərisində yaşayan, bu cür həyatı olan insanlardan hər kəsin anidən üz çevirməsi elə ən böyük cəzadır".

❑ **Əli RAİS**



# İcra hakiminin imzası

Zamin HACI
zaminhaci@gmail.com

**Saqqallı bir lətifə var, deyir, bir gün şəkili Hacı dayı gedir Moskvaya, restoranda yemək istəyəndə buna menyunu verirlər. Hacı dayının menyudakı yemək adlarından başı çıxmır, bircə "salat" sözü nəsə doğma gəlir, ofisianta deyir, mənə salat gətirin. Salat gəlir, Hacı dayı baxır ki, bu, doğranmış pomidor-xiyardır. Əsəbləşir, çəngəli pomidorun qəlbinə sancıb (bunu bir az romantika üçün uydurdum, hərçənd yaxşı pomidorun da öz daxili aləmi, qəlbi olmamış deyildir - Z.H.) qışqırır: "Əəə, bamadur, Şəkidən Moskvaya gəlib salat olmusan?!"**

Ancaq indi bizim milli pomidorların Moskvada salat olmaq şanslarına kölgə salınıbdır. Xəbərə görə, srağagün Rusiyanın dövlət idarəsi *(indi bunun tam dəqiq adının Fitosanitar və Baytarlıq Nəzarəti üzrə Federal Xidmət olduğunu yazsam, sizə çoxmu lazımdır?)* sərhəddə 18 ton pomidorumuzu geri qaytarıbdır. Fındığımızın İtaliyadan sındırılmadan üstümüzə qaytarılmasından sonra bu, ikinci bəd xəbərdir. Fındığımızın balaca olması səbəb idisə, rusların pomidorumuza mız qoyması daha gülünc söhbət üzündəndir: deyir, pomidorun sənədləri saxta imiş. Elə bil pomidor 16 yaşına çatmış vətəndaş-filandır, bunun şəxsiyyət vəsiqəsi, xarici pasportu, Xiyarla nikah müqaviləsi, nə bilim, Xaçmazın kəndindəki bostanda qeydiyyatda olması haqda mülk kağızı-zadı olmalıymış. Hərçənd indiki vaxtda ərzaq məhsullarının az qala elə bu qədər kağız-kuğuzu olur. Hələ bir gen modifikasiyası sənədi-filan deyə bir şey də var.

Düşünürəm ki, Rusiya xarici işlər naziri Lavrovun ölkəmizə səfəri, Avropanın dağılması, Almaniyanın çökməsi - AzTV-yə inanmırdınız, buyurun, artıq Merkel təzə hökumət qayırmağa çətinlik çəkir, Berlin üzərində qara buludlar toplaşıbdır - Zimbabvedə hərbi çevriliş, Samuxda yaz arpa səpinlərinin qızğın dövrü, İmişlidə hər hektardan 1000 ton pambıq, 100 ton quzu yunu və 10 ton dana dərisi alınması üzrə dövlət planlarının fonunda pomidorumuzun saxta sənədlə sərhəddə elə keçməsi yaxşı hal olmamalıdır. Niyə olsun? Bundan azca qabaq da Bakıda bir nəfəri tutdular, qardaşımız hansısa icra hakiminin möhürünü, imzasını saxtalaşdırıb camaata torpaq, mənzil-zad satırmış. Vicdansızlığın dərəcəsinə baxın. İnsan olan kəs də icra hakiminin imzasını saxtalaşdırarmı? Nə Allahdan qorxurlar, nə administrasiyadan... Ta icra hakiminin imzası da saxtalaşan ölkədən hansı gələcək umasan? Nəyə ümid edəsən? Məncə, ərəblərdəki əl kəsmək cəzasını burda yaratmalıyıq. Arada onu da qeyd edim ki, Ermənistan tamam boşalıbdır, biləsiniz.

Dövlət quruculuğu, vətəndaşların sosial müdafiəsi istiqamətində işlər görülməkdə davam edir. Planlı şəkildə özü də. Vəkil Yalçın İmanovun da lisenziyasını Vəkillər Kollegiyasının xətti ilə əlindən alıblar. Vətəndaşları dövlət, polis, hakim, prokuror özü müdafiə edirsə, Ədliyyə Nazirliyinin penisentiar idarəsi hətta dustaqlara qatarda konsert düzəldib gəzməyə buraxırsa, sən vəkil kimi nəyə lazımsan axı? Rayon camaatı adından xahiş edərdik NKVD troyka məhkəmələri bərpa olunsun. Ümumiyyətlə, Stalin kişi adam idi, Bağırov isə bizim Şimal Buzlu Okeanına köçürülməyimizə icazə verməyibdir. Gənc nəsil belə dadlı-duzlu tarixi faktları bilməyə borcludur. Tarixini unudan, gələcəyindən də məhrum olur. Tarix avtomobildə güzgü kimidir, onda geriyə baxıb, qabağa gedirsən. Laroşfukonun sözləridir. Bəlkə də heç onun vaxtında avtomobil hələ ixtira edilməmişdi, ancaq bunun kimə nə dəxli var? Yaxşısı budur, siz gedin icra hakiminin imzasını saxtalaşdıran vətəndaşınızın dərdini çəkin. Yer yarılsa yerə girsək, pomidor olub tomat pastasına dönsək, bundan yaxşıdır. İcra hakiminin imzası... Lənət şeytana... Tfu, sizin üzünüzə - Mirzə demişkən...

İndi söz əlaqədar təşkilatlarındır.



# Türkiyə NATO-dan çıxsa... mümkün nəticələr

## O halda ən çox itirən hansı tərəf olacaq? Ekspertlər ayrılmanı real saymasalar da, istisna da eləmirlər

**Türkiyə prezidentinin müşaviri və sözçüsü İbrahim Kalın "France 24" telekanalına müsahibəsində bildirib ki, Türkiyə NATO ilə əlaqələrini pozmaq niyyətində deyil. Türkiyənin 50 ildən çoxdur NATO-nun güclü bir müttəfiqi olduğunu söyləyən İ. Kalın deyib ki, baş verən son hadisə diqqətlə araşdırılmalıdır.**

İ. Kalın "Türkiyə NATO ilə əlaqələrini kəsməyi düşünürmü" sualına "xeyr" cavabını verib. Onun bu açıqlamasından bir gün əvvəl Türkiyə prezidentinin mədəniyyət məsələləri üzrə müşaviri Yalçın Topçu isə NATO ilə münasibətlərə yenidən baxılmasının zəruriliyini bildirmiş və Türkiyənin alyansa üzvlüyünün Böyük Millət Məclisində müzakirəyə çıxarılmasını tələb etmişdi. Müşavir hətta bəyan etmişdi ki, Türkiyə 2019-cu ildə NATO sıralarını tərk etməlidir.

**Bəs Türkiyənin NATO üzvü olmaması nələrə gətirib çıxara bilər? Politoloq Şahin Cəfərli bildirdi ki, Türkiyə prezidentinin çoxlu sayda müşaviri var, lakin onlardan İbrahim Kalın açıqlaması dövlətin mövqeyi hesab olunmalıdır:** "Digərlərinin açıqlamalarını heç də dövlətin rəsmi mövqeyi kimi qəbul etmək lazım deyil. Xüsusən də mədəniyyət məsələləri üzrə müşavirin xarici siyasət, təhlükəsizlik kimi önəmli bir məsələdə bəyanat verməsi yolverilməzdir. Kalın həm də prezidentin sözçüsü vəzifəsini yerinə yetirir. O, Fransa televiziyasına müsahibəsində bu məsələdə dövlətin mövqeyini nəzərə çatdırıb, bildirib ki, Türkiyə NATO-dan çıxmağı planlaşdırmır və NATO daxilində önəmli bir müttəfiq ölkə olaraq qalır. Bu, çox doğru mövqedir. Çünki mən Türkiyənin NATO-dan çıxmasının nələrə səbəb ola biləcəyini söyləmək istəmirəm. Açığı, bu sual barədə düşünəndə çox qorxulu ssenarilər insanın ağlına gəlir. Bu qərar böyük fəlakətlərə səbəb ola bilər. Bircə cümlə ilə deyim ki, belə bir addım 1920-ci ildə Osmanlıya imzalatdırılan və Qurtuluş Savaşı nəticəsində zibil qutusuna atılmış Sevr müqaviləsi şərtlərinin aktuallaşmasına gətirib çıxarardı. Ona görə də vəzifəli şəxslər çıxış edərkən, açıqlama verərkən öz sözlərinin məsuliyyətini dərk etməlidir".

**Bununla belə, Ş.Cəfərli hesab edir ki, Y.Topçunun sözləri havadan götürülməyib və ölkə daxilindəki müəyyən çevrələrin, bəzi əhali qruplarının əhval-ruhiyyəsini əks etdirir:** "Türkiyə NATO-ya qoşulduqdan bəri ölkədə bu ittifaqa heç vaxt birmənalı münasibət olmayıb - baxmayaraq ki, Ankara avroatlantik seçimi ilə SSRİ-nin təzyiqlərindən, ərazilərini itirmək təhlükəsindən xilas oldu. İkinci Dünya müharibəsindən sonra Stalin 1921-ci il Moskva və Qars müqavilələrini pozaraq, Türkiyənin bəzi şərq vilayətlərini ələ keçirib, o torpaqları Ermənistan və Gürcüstan arasında bölüşdürmək niyyətində idi. Eyni zamanda SSRİ boğazlara nəzarət hüququ da əldə etmək istəyirdi və Türkiyəyə ultimatum ünvanlamışdı. Türkiyə ABŞ-la yaxınlaşaraq və sonradan NATO-ya qoşularaq bu təhlükəni sovuşdurdu. Buna rəğmən, qeyd etdiyim kimi, Türkiyədə NATO-ya neqativ baxış hər zaman güclü olub. Bunun səbəbləri barədə çox danışmaq olar, lakin əsas səbəb kimi NATO-nun Türkiyənin müstəqilliyini məhdudlaşdırması barədə fikirləri qeyd edə bilərik. Eyni zamanda NATO haqqında Türkiyədə çoxlu konspiroloji hekayələr yazılır, danışılır və bunların hansının doğru, hansının yalan olduğunu müəyyənləşdirmək elə də asan deyil. Hazırkı narazılıq isə daha çox ABŞ-Türkiyə münasibətlərində yaranmış böhrandan qaynaqlanır. 15 iyul 2016-cı il hərbi çevriliş cəhdi, Fətullah Gülənin ABŞ-da olması, Vaşinqtonun Suriyada Türkiyənin terror təşkilatı saydığı PYD-YPG qruplaşmasını silahlandırması və Rza Zərrab məsələsi münasibətlərdə gərginlik yaradan başlıca problemlərdir. Bu problemlər Türkiyədə antiamerika, antiqərb əhvalının daha da güclənməsinə, NATO-dakı son təxribat isə hərbi-siyasi blokda qalmağın məqsədəuyğunluğu barədə müzakirələrin başlamasına səbəb olub. Mən bu müzakirələri izləyirəm və deyə bilərəm ki, əksər köşə yazarları, o cümlədən iqtidara yaxın yazarlar, eləcə də aparıcı siyasi partiyalar, biznes çevrələri NATO-dan, ümumilikdə Qərbdən qopmağın ağır nəticələrə səbəb ola biləcəyini anlayır, buna qarşı çıxırlar. Türkiyədə son aylar səsləri gur çıxmağa başlayan "avrasiyaçı" fərd və qrupların, Vətən Partiyası kimi Rusiyayönümlü marginal qüvvələrin çağırışlarına uymaq olmaz".

**Ş.Cəfərli vurğuladı ki, ən əsas məsələ ABŞ-la münasibətlərdə yaranmış gərginliyin nəzarətdən çıxaraq qopmanın baş verməsini əngəlləməkdir:** "ABŞ-ın Türkiyə ilə müttəfiqliyə uyğun gəlməyən siyasət yeritməsi göz önündədir. Lakin Türkiyənin də müttəfiqliyə zidd addımları olub və indi də var. Yəni hər iki tərəfdən soyuqluğa səbəb olan addımlar atılıb. İndi "əvvəlcə sən başladın" şəklində mübahisələrin bir faydası yoxdur. Mən iki ölkə arasında münasibətlərin yaxın dövrdə istiləşəcəyini gözləmirəm, lakin indikindən daha pis olmasının qarşısı alına bilər. Türkiyə və ABŞ masaya oturub, açıq və səmimi müzakirələr yolu ilə həlli mümkün olan bütün problemləri çözməyə çalışmalıdır".

**Politoloq Elçin Mirzəbəyli isə bildirdi ki, Türkiyənin NATO-nu tərk etməsi bir o qədər də asan məsələ deyil:** "Bu, NATO-nun özündə də mərkəzdənqaçma meyllərini gücləndirə, alyansı parçalanma təhlükəsi qarşısında qoya bilər. Türkiyə NATO-nun güclü hərbi dayaqlarından biridir. Türkiyə NATO-nu tərk edərsə və perspektivdə Rusiya ilə hərbi-siyasi müttəfiq olarsa, bu, hərbi-siyasi balansın köklü şəkildə dəyişməsinə və Avroatlantik Alyansın öz mövqelərini əhəmiyyətli şəkildə itirməsinə səbəb ola bilər. Eyni zamanda qeyd edim ki, Türkiyə-NATO münasibətlərində yaranmış ziddiyyətin günahkarı da Ankara deyil. Türkiyənin NATO üzrə müttəfiqləri açıq şəkildə bu ölkənin ərazi bütövlüyünü pozmağa çalışan terrorçuları, silahlı separatçıları müdafiə edirlər. ABŞ başda olmaqla, bəzi NATO üzvü olan ölkələrin davranışları müttəfiq yox, düşmən davranışlarıdır.

NATO nizamnaməsinin 5-ci maddəsinə görə, Alyansa üzv olan bir dövlətə hücum digər NATO üzvlərinə hücum sayılır. O zaman necə olur ki, illərdir PKK və onun törəmələri Türkiyəyə hücumlar təşkil edir, ölkəni parçalamağa çalışır, lakin NATO üzvü olan dövlətlər Türkiyəni müdafiə etmək əvəzinə separatçıları yemləyir, silahlandırırlar. Ankara da hər şeyin ortaya çıxmasını istəyir. Üzdə dost, arxada düşmən reallığı Türkiyəni yorub və ona görə də müttəfiqlərinə açıq mesajlar verir, mövqeyinizi, kimliyinizi bildirin sualını verir. Eyni yanaşma davam edəcəksə, bu, Türkiyənin NATO ilə vidalaşmasına gətirib çıxara bilər. Şübhəsiz ki, bu, arzuolunmaz ssenaridir, amma realdır".

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 243 (6857) 22 noyabr 2017



# Kremlin ideoloqu Qarabağa gəlir - İrəvanda Türkiyə xofu

## Aleksandr Proxanov: “Ermənistanda qorxu var ki...”; Sergey Lavrovun Bakı və İrəvan səfərlərində ermənilərə verdiyi əsas mesaj; konflikt ətrafında vəziyyət yeni aprel müharibəsinə aparacaq, əgər...

**Rusiya xarici işlər naziri Sergey Lavrovun Bakı və İrəvana səfəri başa çatdı. Maraqlıdır ki, Ermənistanın xarici işlər naziri Edvard Nalbəndyan onu birbaşa hava limanında qarşıladı və iki erməni sanki illərin həsrətliləri kimi möhkəmcə qucaqlaşdı, faktiki şəkildə bir-birinə sarıldılar. İrəvana ayaq basan kimi, Lavrov üstəlik, dərhal saxta soyqırım abidəsini ziyarət edərək, ora gül-çiçək qoydu. Amma Bakıda olanda onun yadına Şəhidlər Xiyabanı düşməmişdi. Erməni ki erməni.**

Əlbəttə ki, səfərin qrafikindəki belə təzadlı keyfiyyət fərqinə diqqət yetirməmək də olardı, əgər erməni əsilli Lavrov (Kalantarov) Rusiya kimi böyük bir dövlətin xarici siyasət idarəsinin başında durmasaydı və üstəgəl, Dağlıq Qarabağ məsələsində bizə özünü ədalətli münsif qismində sırımağa çalışmasaydı. Hələ onu demirik ki, o, Rusiyadakı anti-Azərbaycan çevrələrinin başında dayanan aparıcı şəxslərdən və moderatorlardan biri sayılır.

*****

**Lavrovun İrəvan ziyarətinə gəlincə, Rusiya XİN başçısı gözlənildiyi kimi, digər erməni nazir Edvard Nalbəndyanla görüş və mətbuat konfransı keçirib. Lavrov-Nalbəndyan təması mətbuat üçün qapalı keçirilib. Dağlıq Qarabağ məsələsinin nizamlanması da daxil olmaqla, regional təhlükəsizlik məsələlərini müzakirə edilib. “Bu çətin problemdir və bizim apardığımız danışıqların bütüm nəticələri də göstərir ki, danışıqlar belə tezliklə yekunlaşmayacaq”.**

Musavat.com-un məlumata görə, bu sözləri Lavrov Nalbəndyanla birgə keçirdiyi mətbuat konfransında söyləyib. Onun sözlərinə görə, Azərbaycan və Ermənistan prezidentlərinin onların Cenevrə görüşünün nəticələri haqda pozitiv reaksiyaları faydalıdır. “Moskva Paris və Vaşinqtonla birgə Dağlıq Qarabağ nizamlanması ətrafında situasiyanı analiz edəcək”, - deyə Rusiya XİN başçısı əlavə edib.

Prezident Putinun son Soçi görüşündə türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğana dediyi məlum sözlərin ardınca bu açıqlamalar əslində rəsmi Moskvanın münaqişənin həllinə yanaşmasını ortaya qoyur - Moskva tələsməyə, daha dəqiqi, ərazilərin heç olmasa, bir qisminin qeyd-şərtsiz azad edilməsi üçün satellit Ermənistana təzyiq eləməyə hazırlaşmır. Yaxud buna Bakı üçün ağır şərtlər qarşılığında gedə biləcəyinə işarə edir. Lavrovun bölgə səfəri zamanı ermənilərə ünvanlı əsas ismarış da, bizcə, budur.

*****

**Hərçənd rusiyalı tanınmış yazıçı-publisist və ictimai xadim, Kremlin ideoloqlarından hesab olunan Aleksandr Proxanov Rusiya XİN rəhbərinin Bakı və İrəvana ziyarətini müsbət hadisə sayır. Musavat.com-un məlumatına görə, bu barədə o, “Moskva-Baku” portalına danışarkən deyib.**

“Bildiyiniz kimi, ötən yay Azərbaycan prezidenti İlham Əliyevin dəvəti ilə Bakıda olmuşam, Dağlıq Qarabağ konfliktinə Azərbaycanın baxışını başa düşmüşəm. Bundan sonra mən erməni hərbçilərinin təmsilçiləri ilə görüşüb onların nöqteyi-nəzərini öyrəndim. Bizim yadımızdadır ki, 2016-cı ilin aprel hadisələri zamanı Azərbaycan ərazilərin bir qismini geri qaytara bilib, strateji Lələtəpə yüksəkliyini tutub” - yazıçı söyləyib.

**Proxanovun sözlərinə görə, bu gün elə bir situasiya yaranıb ki, Ermənistan Dağlıq Qarabağ ətrafında bir neçə rayonu qaytarmağa hazırdır.** “Ancaq Ermənistanda qorxu var ki, həmin rayonlar geri veriləndən sonra hərbi status-kvo pozulacaq və Azərbaycan qaytarılmış ərazilərdə hərbi obyektlər yaradacaq”, - deyə o qeyd edib.

“Rusiya - hansı ki, onun üçün bu regionda sülh çox vacibdir, - onda maraqlıdır ki, kövrək sabitlik içində olan bölgə partlayış həddinə gəlməsin və konflikt bacardıqca tez bitsin. Rusiya vasitəçi olaraq, əlindən gələni edir və edəcək ki, Azərbaycanın və Ermənistanın mövqelərini yaxınlaşdırsın. Lavrovun Bakı və İrəvana səfəri də bunu deyir. Rusiya nizamlamaya hədəflənib. Bugünkü fakt ki, Ermənistan rayonları geri verməyə hazırdır - böyük irəliləyişdir”.

**Kremlin ideoloqu tezliklə Qarabağa gedəcəyinin anonsunu da verib:** “Yaxın vaxtlarda mən Bakıya və Dağlıq Qarabağ konflikti ərazisinə səfər edəcəyəm ki, orada iclas keçirəm, münaqişənin mahiyyətini tədqiq edəm. Bizim üçün bu dəqiqə əsas məsələ - Rusiya və Azərbaycan intellektuallarının dəyirmi masasını keçirməkdir - özü də hələ ki güllə səsləri gələn və təhlükə olan rayonlarda. Biz orada Dağlıq Qarabağ problemini həll eləmək istəyirik”.

*****

Əlbəttə ki, xoş məram ayrı şeydir, reallıq - ayrı. Düşmən tərəfin bir neçə rayonu qaytarmağa hazır olmasına gəlincə, çətin ki, gələn ilin aprelində “kreslo dəyişikliyi”nə hazırlaşan və faktiki, Rusiyanın buna “dobro”sunu almış Serj Sərkisyan Qarabağ məsələsində özü üçün bataqlıq effekti verəcək güclü tərpənişə imza atsın. Bu mənada ən azından Ermənistan rəhbərliyinin gələn ilin yazına kimi prosesi uzadacağı şəksizdir. Bu isə artan müharibə riski deməkdir. Ayrı sözlə, düşmən tərəf faktiki, növbəti aprel sindromunu yaxınlaşdırır.

Beləliklə, Lavrovun səfəri Qarabağ məsələsində hansısa irəliləyişə nədən olmasa da, Azərbaycanın və Rusiyanın konfliktin həllinə baxış bucağına yeni bir işıq salmış oldu. Hətta Türkiyənin konfliktin nizamlanmasında artan rolunu təsbit elədi. O Türkiyə ki, hazırda Rusiya ilə yaxınlaşmaq fonunda NATO ilə münasibətlərdə də bir gərginlik yaşanır. Belə görünür, bu gərginlikdən tək Qərb yox, ermənilər də təlaş keçirir.

Bu xüsusda erməni şərhçi Sarkis Arsruninin 1 in.am saytındakı yazısında sitat diqqət çəkir. Musavat.com onu təqdim edir: “Türkiyə və Azərbaycanın Qərb strukturları ilə problemlərinə sevinmək lazım deyil. Çünki bu kimi faktlar yalnız Ermənistan üçün təhdidlərin artması anlamına gəlir. Nədən ki, o zaman Bakı və Ankaranın davranışı daha az proqnoza yatımlı olacaq və regionda Rusiya-Türkiyə-Azərbaycan oxunun yaranma ehtimalı artacaq. Türkiyə bölgədə potensialı və ambisiyaları olan dövlətdir və əgər bu ambisiyalar Qərbdə reallaşmırsa, o zaman Ankaranın nəzəri Şərqə yönəlir - özünün burdan çıxan nəticələri ilə birgə. Ermənistanın təhlükəsizliyinə zəmanəti burdakı Rusiya hərbi bazasında yox, Türkiyənin NATO və ABŞ-la tərəfdaş əlaqələrində axtarmaq lazımdır. NATO-dan kənar Türkiyə təhlükəli və proqnoz edilməyən qonşu olacaq, üstəlik də proqnoz edilməyən başqa bir ölkə ilə - Rusiya ilə sıx əməkdaşlıq rejimində. Bu isə sevinmək üçün yox, təlaşlanmaq üçün əsasdır - həm də böhranlı türk-erməni münasibətləri fonunda”.

**Necə deyərlər, izafi şərhə lüzum qalmır.**

❑ **Siyasət şöbəsi**



# Bu gün 3 prezident Soçidə Suriyanın taleyini həll edəcək

## İŞİD bitir, kürd məsələsi başlayır? Sammit ərəfəsi Bəşər Əsədin Rusiyaya gözlənilməz səfərinin pərdəarxası

**Suriya prezidenti Bəşər Əsəd Rusiyaya səfər edib. Bu, müharibə başlayandan sonra Suriya prezidentinin ikinci xarici səfəridir. Soçidə Əsəd Rusiya prezidenti Putinlə görüşüb. Əsədin Rusiyaya səfəri həm də İŞİD-in Suriya ərazisindəki sonuncu əsas istehkamı olan İraq-Suriya sərhədində yerləşən Əbu Kamal şəhərinin İŞİD-dən geri alınması ilə eyni günə təsadüf edib.**

Putin Bəşər Əsədlə generalların iştirakı ilə görüş keçirib və Suriya prezidentini terrorla mübarizəsinə görə təbrik edib. Putin eyni zamanda əlavə edib ki, Suriyada artıq terrora qarşı müharibə başa çatmaqdadır. Bəşər Əsəd isə bildirib ki, Rusiyanın Suriyada hərbi əməliyyatlara qoşulduğu son iki ildə həm cəbhədə, həm də siyasi baxımdan böyük nailiyyətlər əldə olunub. Qaçqın düşmüş bir çox suriyalı vətəninə geri dönə bilib. Əsəd bildirib ki, Suriya münaqişəsinin həlli ilə bağlı Rusiyanın dəstəyinə güvənirlər, eyni zamanda sülh və həll istəyən bütün tərəflərlə danışıqlarla işləməyə hazırdırlar. O, Rusiyaya minnətdarlığını da bildirib.

Əsədin Soçi ziyarəti Türkiyə, İran və Rusiya prezidentlərinin birgə sammitindən bir gün öncəyə təsadüf edib. Noyabrın 22-də liderlər Soçidə bir araya gəlib Suriya münaqişəsini müzakirə edəcəklər. Rusiya, Türkiyə və İran Astana prosesini aparan, Suriyada atəşkəs bölgələrinin qurulması planını həyata keçirən ölkələrdir.

Artıq Suriyada böyük müharibə başa çatır və indi liderlər bundan sonrakı proseslə bağlı “yol xəritəsi” müəyyən edəcəklər. Yeri gəlmişkən, bazar günü Antalyada 3 ölkənin xarici işlər nazirləri heyətlərin iştirakı ilə toplantı keçirilib. Və prezidentlərin görüşü ilə bağlı detallar razılaşdırılıb. Həmin görüşdən sonra Rusiya XİN rəhbəri Lavrov deyib ki, 3 ölkənin nazirləri mövqeləri uzlaşdırıblar.

Bundan başqa, Suriyanın cənubunda İordaniya sərhədinin yenidən Suriya ordusunun nəzarətinə keçməsi ilə bağlı Rusiya, İordaniya və ABŞ arasında danışıqlar da yekunlaşıb. Artıq Suriya ordusu sərhədin böyük hissəsini nəzarət altına alır. Ötən gün Əbu Kamal şəhərinin azad edilməsindən sonra İŞİD məsələsi də böyük ölçüdə həll olunub. İndi qalır, cənubda İsrail sərhədindəki silahlıların taleyi və şimalda Suriya-Türkiyə sərhədi, daha dəqiqi İdlib vilayəti. İdlibin şimal hissəsini Türkiyə ordusu nəzarətə götürsə də, iç ərazilər hələ də silahlıların nəzarətindədir. Görünür, Soçi toplantısında həm də İdlibin taleyi ilə bağlı qərar veriləcək.

Bundan sonrakı mərhələ isə Suriyanın şimalında böyük bir əraziyə nəzarət edən ABŞ-ın dəstəklədiyi Suriya Demokratik Qüvvələri alyansı, ya da başqa adla kürdlərlə Dəməşq arasında siyasi anlaşmanın əldə olunmasıdır.

Yeri gəlmişkən, Rusiya noyabr ayında Soçidə Suriyada mövcud olan etnik- dini və siyasi qrupların hamısının iştirak etdiyi konfrans təşkil etməyi planlaşdırır. Doğrudur, konfransa kürdlərin dəvət olunmasına Rusiyanın müttəfiqi Türkiyənin razılaşması mümkün görünmür. Ancaq Moskva bununla bütün tərəflərin iştirak etdiyi vahid bir həll variantına ümid edir.

Suriyada İŞİD problemi başa çatsa da, indi əsas ciddi mövzu kürdlərdir. Çünki kürdlər hazırda Suriya hökumətindən sonra ölkədə ən çox əraziyə nəzarət edən qüvvədir. Üstəlik, aprel ayından bu yana Pentaqon kürdləri davamlı olaraq silahlandırır. Raqqa əməliyyatı da artıq başa çatıb və kürdlər indi Suriyada ikinci əsas güc kimi çıxış edir. Ancaq kürdlər özləri də etiraf edir ki, Dəməşqlə anlaşmaya getməsələr, savaşın növbəti səbəbkarı olacaqlar. Hələlik Dəməşq kürdlərə ayrıca status verməyə həvəsli görünmür. Kürdlər isə artıq 3 ildən çoxdur ki, formal olaraq muxtariyyət elan ediblər, məclis formalaşdırıblar.

Kürd liderlər Türkiyə ilə savaş riskini də gözə alırlar. Bu səbəbdən də indi kürdlərin yeganə ümidi ruslardır. Çünki ruslar kürdlərə Dəməşqdən status ala bilər, həm də onları Türkiyədən qoruya bilərlər. Bunun üçünsə ehtimal ki, Rusiya kürdlərin ələ keçirdikləri bölgələrdən çıxmasını tələb edəcək. Soçi prosesi məhz bu məsələlərə aydınlıq gətirməlidir. Bu baxımdan terror başa çatsa da, Suriyada savaşın bitdiyini düşünmək tez olardı. Hər şey həm də rusların kürd mövzusunda ortaya qoyacağı plandan və onun qəbul edilməsindən asılı olacaq.

❑ **Kənan RÖVŞƏNOĞLU**

YENİ MÜSAVAT
N 243 (6857) 22 noyabr 2017

# Yollarda qırılan ömürlər - əsas səbəb nasaz avtomobillərdir

## Kamran Əliyev: "Ölkəmizdə buraxılış ili 30-40 ildən yuxarı olan nəqliyyat vasitələri hələ də istismar olunur"

**Geridə qalan həftənin statistikasına görə, qəzalarda 8 nəfər həyatını itirib. Təəssüf ki, piyada ölümlərinin də sayında artım müşahidə edilir. Piyadaların avtomobillərlə vurulması Bakı şəhəri üzrə bu il ərzində baş vermiş yol-nəqliyyat hadisələrinin 67 faizini təşkil edir ki, bu rəqəm də ciddi narahatlıq doğurur. Qeyd edək ki, 2017-ci il yanvarın 1-dən noyabrın 11-nə qədər Bakı şəhəri üzrə 527 yol qəzası qeydə alınıb. Bu hadisələrin nəticəsində 166 nəfər ölüb, 461 nəfər isə xəsarət alıb.**



Türkiyədə də avtomobil qəzaları həddindən artıq çox olsa da, son zamanlarda azalma müşahidə olunduğu bildirilib. Bu günlərdə yollardakı vəziyyətlə bağlı tədbirdə çıxış edən Binəli Yıldırım avtomobil qəzalarının azalmasının avtomobillərə texniki baxış məsələsinin gücləndirilməsi ilə bağlı olduğunu qeyd edib. Qeyd edək ki, ölkəmizdə sovet vaxtından qalma, buraxılış ili 30-40 ili ötən avtomobillər hələ də var və bu avtomobillər yollardadır. Bu cür avtomobillərdən istifadə edənlər bəzən uzaq səfərə belə çıxırlar ki, bu da həm onların, həm də digər hərəkət iştirakçılarının təhlükəli vəziyyətlə üzləşmə ehtimalı deməkdir.

**Respublika Baş Dövlət Yol Polisi İdarəsinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis polkovniki Kamran Əliyev ölkəmizdə buraxılış ili 30-40 ildən yuxarıda olan nəqliyyat vasitələrinin hələ də istismar olunduğunu dedi:** "Noyabrın 16-18-i arası Türkiyədə 8-ci Karayolu Trafik Günəvliyi adlanan tədbirdə mən də iştirak edirdim. Cənab Binəli Yıldırım orada nəqliyyat vasitələrinin texniki baxışından da danışdı. Amma ən əsas məsələnin hətta çoxillik sürücülük təcrübəsi olan sürücülərin, məktəblərdə və digər təhsil müəssisələrində bu sahədə təhsilin, tədrisin artırılması olduğunu, insanların yol təhlükəsizliyi ilə bağlı maarifləndirilmələrinin vacibliyini qeyd etdi. Statistik məlumatlara görə, Türkiyədə hər 100 min nəfərə düşən ölüm sayı 8,9 təşkil edirsə, Azərbaycanda bu rəqəm 7,8-dir. Bu rəqəmləri əhali sayı, avtomobil sayı ilə müqayisə etdikdə istənilən halda Azərbaycanda qəzaların, qəza nəticəsində ölənlərin sayı əhali və avtomobil sayına görə azdır. Bilirsiniz ki, Türkiyədə kifayət qədər avtomobil istehsal edən müəssisələr var. Orada mütəmadi olaraq köhnə avtomobillərin utilizasiyası prosesi həyata keçirildiyindən uzun müddət istismarda olan nəqliyyat vasitələrinə çox nadir hallarda rast gəlinir. Sözsüz ki, bu da qəza zamanı ölüm hallarının qarşısını alır. Hörmətli baş nazir çıxışında da ötən illərlə müqayisədə qəza sayının artmasına baxmayaraq ölüm sayının azalmasını vurğuladı. Əlbəttə, avtomobillərin istismar müddəti keçdikcə yenilənməsini biz də istərdik. Çünki nəqliyyat parkının yenilənməsi təhlükəsizlik məsələlərinə bilavasitə təsir edir. Ölkəmizdə buraxılış ili 30-40 ildən yuxarıda olan nəqliyyat vasitələri hələ də istismar olunur. Söhbət onların texniki nasazlığından getmir. Sadəcə, həmin avtomobillər zərbəyə dözümlü olmadıqlarına görə qəza zamanı ölüm ehtimalı daha yüksək olur. Yəni köhnə avtomobilin mexaniki hissələri saz vəziyyətdə ola bilər. Amma bu avtomobillərdə kəmərlərdən başqa heç bir təhlükəsizlik elementləri, yəni hava yastığı, metalın üzünü örtən plastik materiallar olmadığı üçün qəza zamanı salondakı metal hissənin əyləşən insana birbaşa toxunması nəticəsində ciddi zədə alma ehtimalı daha çoxdur. Amma müasir avtomobillərdə o dəmirlərin üstü xüsusi plastiklərlə örtülür ki, qəza zamanı onlar insana elə ciddi xəsarət yetirməsin, ölümə səbəb olmasın. Nə qədər təbliğat işləri aparsaq da, bəzən insanlar köhnə avtomobilləri ilə heç cür vidalaşmaq istəmirlər. Bildiyim qədər Azərbaycanda da belə bir proqram layihəsi artıq işlənilir. Amma düşünürəm ki, utilizasiya proqramı dövlət tərəfindən deyil, ayrı-ayrı avtomobil şirkətlərinin nümayəndələri tərəfindən də həyata keçirilə bilər. Yəni güzəştli qiymətlərlə satış müqabilində bu avtomobillər həmin dillerlər tərəfindən alınaraq çıxdaş edilib istismardan çıxarıla bilər. Yaxın gələcəkdə belə bir proqram qəbul olunsa, hər kəs gətirib köhnə avtomobilini təhvil verər. Biz həm sürücülərin, həm də digər hərəkət iştirakçılarının təhlükəsizliyinin təmin olunması məqsədilə belə avtomobillərin yoldan kənarlaşdırılmasını çox istəyirik. Bəzən yeni buraxılmış avtomobillərlə 30-40 il əvvəlin istehsalı olan avtomobil toqquşanda yeni avtomobildə xəsarət belə olmur, köhnə avtomobildə isə 3-4 nəfər xəsarət alır, yaxud dünyasını dəyişir. Bəzi rayonlarda köhnə avtobuslardan hələ də istifadə olunma halları var. Sözsüz ki, belə avtomobillər texniki baxışdan keçməyibsə, onlarda texniki nasazlıq aşkar olunursa, onların istismarı qadağan olunur. Lakin avtomobilin təkcə buraxılış ilinin çox olmasına görə biz heç bir nəqliyyat vasitəsinin istismarını qadağan edə bilmərik".



**Nəqliyyat eksperti Ərşad Hüseynov nəqliyyatlarla bağlı dövlət proqramının hələ də olmamasından təəssüf hissi keçirdiyini dedi:** "Türkiyədə son 15 ildə dövlət səviyyəsində xüsusi proqram çərçivəsində yol hərəkəti təhlükəsizliyi ilə bağlı tədbirlər keçirilir. Bu istiqamətdə işlər görüldüyünə görə doğrudan da 10 il əvvəlki ilə müqayisə edəndə Türkiyədə yol təhlükəsizliyi yüksək səviyyədədir. Azərbaycanda da belə işləmək lazımdır. Təəssüf ki, bizdə dövlət proqramı hələ də yoxdur. Gözlənilir ki, bu proqram yaxın gələcəkdə olacaq. Həmin proqram çərçivəsində daha ciddi, elmi cəhətdən əsaslandırılmış, dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə söykənən, Azərbaycan reallıqlarına uyğun gələn işlər görülməlidir. Son bir neçə günün statistikasına baxsaq çox ağır qəzaların olduğunu görərik. Onların demək olar ki, heç birinin texnika ilə bağlılığı yoxdur. Yol nəqliyyat hadisələrinin 20 faizi maşının texniki vəziyyəti ilə bağlı ola bilər. 80 faizini yol hərəkəti iştirakçılarının qaydaları kobud şəkildə pozması təşkil edir. Qəzalara səbəb insan faktorudur. Dövlət tərəfindən iş görülməlidir. Əgər bu işlər görülsə, proqram olsa bunun bir neçə ildən sonra müsbət nəticələrini görə bilərik".

❑ **Günel MANAFLI**

# Enerji, qaz və su şəbəkələri niyə özəlləşdirilmir?

## Ekspert: "Dövlətin əlində yetərincə alətlər var ki…"

**Azərbaycanda qaz, eneji və su təchizatı sistemi dövlətin əlində qalmaqdadır. Hər il dövlət büdcəsindən ölkənin bu 3 xidmətlə təchizatı sistemi, bu sistemlərdə aparılan yenidənqurma işləri üçün yüz milyonlarla, hətta milyardlarla manat vəsait ayrılır. Bundan əlavə, müəyyən fasilələrlə "Azəriqaz", "Azərişıq", "Azərsu"nun büdcəyə olan yüz milyonlarla manat vergi borcları silinir. Eyni zamanda büdcədən əhalinin qaz və enerjidən istifadəsinə görə "Azəriqaz" və "Azərişıq"a irihəcmli subsidiyalar ayrılır. 2018-ci ilin dövlət büdcəsində bu subsidiyanın həcminin 250 milyon manat olacağı nəzərdə tutulur.**

Dünyanın, elə bizim qonşularımızın da praktikasında isə qaz, elektrik enerjisi və supaylayıcı sistemlər dövlətin deyil, özəl şirkətlərin əlindədir. Götürək elə qonşu Gürcüstanı. Həm qaz, həm enerji paylama şəbəkəsini özəlləşdirən bu ölkə ilk illərdə müəyyən çətinliklər yaşasa da, artıq onların hamısı arxada qalıb, dövlət paylayıcı şəbəkələrə vəsait yatırmaq kimi ağır yükdən tam azaddır. Azərbaycanda da 2000-ci illərin əvvəllərində Bakı, Sumqayıt və Şimal bölgəsinin enerjipaylama sistemi "Barmek" şirkətinin idarəetməsinə verildi, lakin qısa müddətdən sonra geri alındı.

Neftin dünya bazar qiymətinin, həmçinin ölkədə neft hasilatının yüksək olduğu dövrdə dövlətin paylayıcı şəbəkələrin ağırlığını çəkmək imkanları vardı. Lakin artıq həm neftin qiyməti əvvəlki kimi yüksək deyil, həm də hasilat həcmləri ildən-ilə azalır. Belə bir şəraitdə dövləti və büdcəni ağır yükdən azad edib, qaz, enerji və su paylama sistemlərini özəl əllərə vermək daha məqsədəuyğun olmazmı? Hökumət nədən buna getmir: adları çəkilən sosial əhəmiyyətli sahələrə nəzarəti itirmək istəmir, yoxsa başqa maraqlar var?

**İqtisadçı-ekspert Natiq Cəfərlinin fikrincə, burada bir neçə amil rol oynayır:** "Birincisi, bu sahələrin özəl əllərə verilməsi o zaman yüksək effekt verə bilər ki, təhvil alan təcrübəli, müasir texnologiyalara malik xarici investorlar olsun. Xarici investorların sahəyə gəlməyə maraqlı olması üçün isə müəyyən addımların atılması, idarəetmədə, məhkəmə sistemində dəyişikliklər aparılması lazımdır. Yəni münbit şərait olmalıdır. İkinci məsələ budur ki, bu sahələrdə mənsəb sahibi olan maraq qrupları var. Həmin qruplar maraqlıdılar ki, sahə dövlətin əlində qalsın: dövlət bura yüksəkhəcmli investisiyalar yönəltsin, subsidiyalaşma olsun və sair. Bu vəsaitlər hesabına həyata keçirilən tenderlərdə, təmir-tikinti işlərində həmin qrupların maraqları böyük planda təmin olunur. Hansı ki, özəl şirkətlər olacaqsa, belə təminatlardan söhbət belə getməyəcək".

**Ekspert deyir ki, 3 mühüm sektorun özəlləşməsinin qarşısında duran üçüncü böyük maneə həmin sahələrin yenidənqurulması üçün irihəcmli vəsaitlərin tələb olunmasıdır:** "Bu sistemlər xüsusilə regionlarda az qala sovetdənqalma avadanlıqlarla işləyir. İllərdən bəridir dövlətin ayırdığı milyardlarla vəsait hara gedib bilən yoxdur. Bu sistemləri alan şirkətlər qoyacaqları vəsaitlər üçün dövlətdən zəmanət, yaxud vergi və sair güzəştlər istəyəcəklər. Yəni faktiki olaraq dövlət ciddi şirkətləri cəlb etmək üçün belə güzəştləri təklif etməli olacaq. Görünən odur ki, hökumət belə radikal addımların atılmasını istəmir. Nəticədə isə dövlətlə vətəndaş üz-üzə qalır: vətəndaş keyfiyyətli xidmət ala bilmir, qarşısındakı dövlət şirkəti olduğu üçün şikayət hüququnu təmin edə bilmir. Dövlət isə bir tərəfdən vətəndaş narazılığı ilə üzləşir, bir tərəfdən də ağır maliyyə yükünün altında qalır".

**Qeyd edək ki, əksər məmurlar qaz, su və enerji şəbəkələrinin özəlləşdirilməsinin qiymət artımına səbəb olacağını əsas gətirməklə hökumətin əhalini düşünərək buna getmədiyini deyirlər. N.Cəfərli bildirir ki, şəbəkələrin özəl əllərə verilməsi müəyyən sosial problemlər yarada bilər:** "Əsas problem xeyli sayda insanın işsiz qalması ilə bağlı yarana bilər. Bilirsiniz ki, bu şirkətlərdə idarəetmə çox bərbaddır, uzun illərdir ştatlar şişirdilir, çoxlu sayda lazımsız ştatlar açılıb. Özəl şirkət gələndə aydın məsələdir ki, lüzumsuz ştatları ləğv edib, həyəti optimallaşdıracaq. Qiymət artımına gəlincə, dövlətin bu sahədə tariflərə təsir etmək üçün əlində rıçaqları olacaq: şirkətlərə vergi güzəştləri tətbiq etmək, yaxud güzəştli kredit vermək kimi yollarla əhali üçün optimal tariflərə nail olmaq mümkündür. Yəni özəl əllərə verilməsi o demək deyil ki, dərhal tariflər qalxmalıdır. Üstəlik, hazırda bizdə tariflər elə də aşağı deyil. Müqayisə oluna biləcəyimiz region ölkələrindən çox az fərqlənir. Həmçinin qeyd etdiyim kimi, dövlətin əlində yetərincə alətləri var ki, tariflərin çox artmasına imkan verməsin. Yetər ki, hökumətin istəyi olsun".

❑ **Dünya SAKİT**

YENİ MÜSAVAT
N 243 (6857) 22 noyabr 2017

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

# Bakının Qarabağ həmləsi - Avropanın "ürəyi"ndə erməni təbliğatına zərbə

## Azərbaycan və dostları ölkəmizə qarşı "ikili standart" siyasətini faş etdilər; **politoloq:** "Ərdoğanın verdiyi açıqlamadan sonra bir daha məlum oldu ki..."



**Belçikanın baş şəhəri Brüsseldə - Avropanın paytaxtında Azərbaycanın təşəbbüsü ilə "Separatizmin beynəlxalq sülhə və təhlükəsizliyə yaratdığı təhdidlər" mövzusunda iki günlük beynəlxalq forum uğurla başa çatıb. Adından da göründüyü kimi, əsas diqqət mərkəzində olan məsələ Dağlıq Qarabağ ixtilafı, Ermənistanın ölkəmizə qarşı davam edən işğalçılıq siyasəti olub.**




Azərbaycan dövlətinin moderatorluğu ilə reallaşan tədbir sözsüz ki, Bakının Qarabağ məsələsində yeni diplomatik həmləsi, siyasi-diplomatik uğuru kimi qiymətləndirilə bilər. Belə ki, bu möhtəşəm tədbirlə Azərbaycan bir növ, öz haqq işi olan Dağlıq Qarabağ məsələsində "ikili standart" mövqeyinin ən çox büruzə verildiyi Avropa qitəsində güc nümayiş etdirmiş oldu.

Hər halda, dünyanın bir çox nüfuzlu siyasət adamlarının, ekspertləri və media təmsilçilərinin qatıldığı forumdan hərə öz ölkəsinə çox mühüm bir Azərbaycan həqiqəti aparacaq. Azərbaycanın dostlarının arealı genişlənmiş olacaq. Eyni zamanda ən müxtəlif ölkələrdən gələn diaspor fəallarımız bu forumdan mühüm bir kurs almış olacaqlar. Tədbirin daha bir uğuru isə şübhəsiz ki, onun yekununda "Anti-separatizm Hərəkatı" Beynəlxalq İctimai Təşkilatının təsis edilməsidir.

*****

Forumda səslənən fikir və təkliflər həm də işğalçı Ermənistana və onun arxasındakı güclərə xəbərdarlıq mesajları hesab oluna bilər. O anlamda ki, konfliktin ədalətli həllindın danışanlar ilk növbədə işğal faktına diqqət eləməli, Azərbaycana, onun xalqına qarşı haqsız davranmamalı, ikili standart siyasətdən əl çəkməlidirlər. Bu xüsusda iki rəyi diqqətə çatdırmaqla kifayətlənirik. Çünki hər iki fikir toplantıdakı ab-havanı çox yaxşı ifadə edir.

**"Dünyada Qarabağ probleminin həlli ilə bağlı "ikili standart" var. Dövlətlərin ərazi bütövlüyünün pozulmasına göstərilən münasibət Azərbaycana gələndə dəyişir. Onlar bunu "xalqların öz müqəddəratını həll etmə hüququ" adlandırırlar". Bu sözləri forumdakı çıxışında israilli siyasətçi, fizik, keçmiş nəqliyyat və səhiyyə naziri, eks-deputat, istefada olan briqada generalı, müdafiə nazirinin keçmiş müavini, Netanya Akademiyasının Strateji Dialoq Mərkəzinin rəhbəri Efreym Sneh deyib. O, haqlı olaraq bildirib ki, "məgər hərbi təcavüzlə "öz müqəddəratını həll etmə" mümkündürmü?"**

"Bu absurddur. Ermənistana isti münasibət təkcə ikili standart yox, həm də biveclik və riyakarlıqdır. 25 ildir insanlar əziyyət çəkirlər, onlar öz evlərinə qayıtmalıdırlar. Mən anlaya bilmirəm: Azərbaycanın qazı və nefti yaxşıdır, özü isə pis? Aydın görünür ki, bu durum bəzilərinə sərf edir və onlar münaqişənin həllini bilərəkdən uzadırlar", - deyə çıxışçı qeyd edib.

**Generalın sözlərinə görə, Qarabağ problemi ədalətli həll olunmalıdır ki, növbəti münaqişələrin qarşısı alınsın:** "Azərbaycan prezidenti İlham Əliyevin sülh danışıqlarına önəm verməsindən sui-istifadə olunmamalıdır".

**"Azərbaycan ərazilərini işğal altında saxlayan Ermənistana qarşı dünya birliyi sərt reaksiya göstərməlidir". Bu sözləri isə Almaniyanın keçmiş deputatı və dövlət katibi, Azərbaycanın Almaniyadakı fəxri konsulu Otto Hauzer deyib. O bildirib ki, Rusiyaya qarşı olan iqtisadi və siyasi sanksiyalar Ermənistana da tətbiq edilməlidir:** "Terrorizm və separatizmin qarşısını sanksiyalarsız almaq mümkün deyil. Sanksiyalar olmalıdır ki, 20 ildən artıqdır evlərindən didərgin düşmüş insanlar öz yurd-yuvalarına qayıda bilsinlər".

*****

Təbii ki, Dağlıq Qarabağ uğrunda mübarizə indi təkcə hərb meydanında deyil, diplomatik alanda və təbliğat savaşı ilə də aparılır. Hətta hazırda siyasi-diplomatik və təbliğati mübarizə vasitələri bir qədər önə keçib. Bu mənada Brüssel Forumu mühüm önəm daşıyır. Ən başlıcası, toplantı yeni bir hərəkatın təsis edilməsi ilə başa çatıb ki, bu da erməni lobbisinin xüsusilə fəal olduğu Avropada Qarabağla bağlı təbliğat işlərinin daha keyfiyyətli qurulmasına imkan verəcək.

Şübhə yox ki, Azərbaycan dövləti, onun diaspor qurumları, ictimai təsisatları bundan sonra Qarabağla bağlı daha şəbəkələşmiş və koordinasiyalı fəaliyyət göstərmək üçün səyləri artıracaq. Eyni zamanda hərb variantının gündəmdən çıxmadığını nəzərə alaraq, ordu quruculuğuna xüsusi diqqət ayrılacaq, silahlı qüvvələrimizin hərbi və döyüş hazırlığı gücləndiriləcək, işğalçı Ermənistan üzərində hərbi üstünlük qorunub saxlanacaq.

Rəsmi Bakı sözsüz ki, bu zaman sülh qapılarını da açıq saxlayır. Çünki sülhpərvər ölkə olaraq Azərbaycan müharibə istəmir. Kimsənin də ərazisində gözü yoxdur. Azərbaycanın istədiyi tək şey 29 illik erməni işğalına son qoyulmasıdır.

**"Bu münaqişənin həll edilməsinin əsas şərti ondan ibarətdir ki, Azərbaycan münaqişənin öz ərazi bütövlüyü, suverenliyi çərçivəsində həlli üçün istənilən təklifi qəbul etməyə hazırdır. Bu təkliflər əsasən Kazan protokolları, Sankt-Peterburq razılaşmalarıdır". Bu sözləri axar.az-a açıqlamasında politoloq Arzu Nağıyev Rusiya XİN başçısı Sergey Lavrovun Bakı və İrəvana səfəri fonunda Dağlıq Qarabağa dair danışıqların gedişini şərh edərkən deyib.**

**Ekspert bildirib:** "Rus ekspertləri bu səfərin iki ölkə arasında diplomatik əlaqələrin 25 illik yubileyi ilə bağlı olduğunu desələr də, bu görüşün əsas məğzi Dağlıq Qarabağ münaqişəsinin həllində irəliyə doğru müəyyən addımların atılmasına nail olmaqdan ibarətdir. Bu, Azərbaycan tərəfinin də tələbidir. Rusiya da bölgədə öz nüfuzunu bərpa etmək üçün bu addımları atmağa çalışır və ATƏT-in Minsk Qrupunun həmsədri olan dövlətlərdən biri kimi bu missiyanı öz üzərinə götürüb. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın verdiyi açıqlamadan sonra bir daha məlum oldu ki, burada əsas açar fiqur məhz Rusiyadır".

**Politoloq qeyd edib ki, buna görə də prezident İlham Əliyev Lavrovla görüşdə Dağlıq Qarabağ münaqişəsinin həllində müəyyən irəliləyişlərin əldə edilməsinin vacibliyi mesajını verdi:** "Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarovla görüş zamanı da bu məsələlər əsas müzakirə mövzusu oldu. Bundan sonra İrəvanda görüşlər keçiriləcək və bu görüşlərin nəticəsi ilə bağlı dövlət başçılarına məlumatlar, məruzələr ediləcək. Əsas məqam Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində atılacaq addımlar olacaq".

*****

**Ancaq aydındır ki, Moskva münaqişənin çözümündə səmimi şəkildə maraqlı olmayınca atılacaq addımlar da həmişəki kimi səmərəsiz olacaq. Rusiyanın sülh təşəbbüsləri bir yana dursun, Kreml hətta konfliktin həllinə mane olmamaqla da prosesə ciddi töhfə və təkan verə bilər. Çünki o halda Qarabağ məsələsində qısa zamanda müsbətə doğru dönüş yaranar.**



## ATƏT-in baş katibi: "Qarabağ münaqişəsini diqqətlə izləyirik"

**"Biz Dağlıq Qarabağ münaqişəsini diqqətlə izləyirik". Bunu RBK-ya müsahibəsində ATƏT-in yeni baş katibi Tomas Qreminger bildirib (Trend).**

"Bizim xüsusi alətimiz - ATƏT sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşik tərəfindən başçılıq edilən və təmas xətti boyunca vəziyyətə diqqətlə nəzarət edən əməkdaşları olan missiyamız var. Biz son zamanlar baş verən alışmadan narahat idik", - deyə Qreminger bildirib.

Baş katib həmçinin deyib ki, onun rolu ondan ibarətdir ki, Minsk Qrupunun üç həmsədrinin Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin tapılmasına yönələn səylərinə dəstək olsun.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 243 (6857) 22 noyabr 2017

**"Devalvasiyadan sonra, hökumət islahatlar istiqamətində müəyyən addımlar atdı, amma neftin qiyməti qalxan kimi hər şey dayandı". Bu sözləri Milli Məclisin deputatı Qüdrət Həsənquliyev "Yeni Müsavat"a müsahibəsində səsləndirib. O, təəssüflə qeyd edib ki, bu islahatlar davam etdirilmədi. Milli Məclis üzvü hesab edir ki, Neft Fondunun vəsaitləri dövlət büdcəsi vasitəsilə məmurlar tərəfindən xərclənməkdənsə, banklar vasitəsilə sahibkarlara verilsə, real sektora yatırılsa, daha çox fayda gətirər və daha rentabelli olar: "Siz yəqin xatırlayırsınız, hər dəfə Elman Rüstəmov parlamentə gələndə mən sual verirdim ki, niyə bizim xaricdəki Neft Fondundakı pullarımızın bir hissəsi gətirilib Azərbaycan banklarında saxlanılmır? O, cavab vermirdi. Bir dəfə mənə cavab verdi ki, biz onsuz da neft pullarını büdcə vasitəsilə xərcləyirik. Bilirsiniz söhbət nədən gedir? Bir var neft pullarını məmur xərcləyə, bir də var sahibkar. Yeni büdcəyə gələndə artıq hökumət üzvləri müəyyənləşdirir ki, hara, nə qədər pul ayrılmalıdır - bir də var sən pulu gətirib bankda saxlayırsan, sahibkar da gedib aşağı faizlə kredit götürüb istədiyi layihəyə xərcləyir, həm də Azərbaycan vətəndaşı görür ki, dövlətin özü qorxmur, öz pulunun bir hissəsini kommersiya bankında saxlayır".**

# Deputatın "neft bahalaşdı, islahatlar dayandı" iddiasına reaksiya

## Vüqar Bayramov: "Hökumət Neft Fondunun gəlirlərinin daha az xərclənməsinə çalışmalıdır"



Məlum olduğu kimi, neftin qiyməti artıq 60 dolların üzərindədir. "AzəriLayt" markalı neftinin bir bareli 63,34 dollara satılır. Bu qiymətlərin nə qədər dayanıqlı olacağı bəlli olmasa da, artıq hökumətdə bir arxayınlıq hiss olunmaqdadır. İqtisadçı ekspertlər belə hesab edir. Səbəb isə 2018-ci ilin dövlət büdcəsinin xərclərinin Neft Fondundan transferlər hesabına artırılmasıdır. Hökumət islahatlar yolu ilə deyil, məhz neft pullarını büdcə vasitəsilə iqtisadiyyata daxil etməklə canlanma yaratmağa çalışır ki, bu da effektiv yol deyil.

Bəs görəsən, həqiqətənmi neft bahalaşan kimi islahatlar dayandırıldı və ya süreti zəiflədi? Hökumətin qəbul etdiyi yol xəritələrinin icrası nə durumdadır?

**Bu sualları cavablandıran iqtisadçı ekspert Vüqar Bayramov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, 2018-ci ilin dövlət büdcəsində gəlirlərin 4 milyard manata yaxın artması birbaşa neftin dünya bazarında qiymətinin müəyyən qədər yüksəlməsi və stabilləşməsi ilə bağlıdır:** "Əgər neftin qiyməti 50 dollar intervalında proqnozlaşdırılırdısa, son bir ayın yekunları göstərir ki, qiyməti 60 dollar ətrafında dəyişir. Bu da neft satışından əldə edilən gəlirlərin artmasına və bu kontekstdə daha çox xərcləmələrə gətirib çıxarır. Biz fiskal tarazlığın qorunub saxlanılmasının tərəfdarıyıq. Xərcləmələrdə volatilviyin qorunub saxlanmasına ehtiyac var. 2018-ci ilin dövlət büdcəsində xərclərin kəskin artırılması məqsədəuyğun deyil. Həmin xərclərdə volatilviyin qorunub saxlanılmasına ehtiyac var ki, fiskal dayanıqlığı uzunmüddətli dövr üçün bərpa etmək mümkün olsun. Sözsüz ki, 2015, 2016, eləcə də 2017-ci ildə xərclərin azaldılması xüsusilə də infrastruktura ayrılan vəsaitlərin həcminə təsir göstərmişdi. 2018-ci ildə hökumət bunu müəyyən qədər kompensasiya etməyə çalışdı. İstənilən halda xərcləmələrdə volatilvik qorunub saxlanılmalıdır. Dövlət Neft Fondundan dövlət büdcəsinə ayrılan transferlərin həcminin optimallaşdırılmasına ehtiyac var".

**İqtisadçı bildirdi ki, 2018-ci ildə biz DNF-dən daha çox vəsaitin dövlət büdcəsinə ayrılmasını müşahidə edəcəyik:** "Ancaq daha məqsədəuyğun olardı ki, həmin transferlərin optimallığı qorunub saxlanılsın. Strateji Yol Xəritəsində Dövlət Neft Fondundan dövlət büdcəsinə transferlərdə qızıl ortanın müəyyənləşdirilməsi nəzərdə tutulub. Ancaq hələ ki bu qızıl orta tapılmayıb. Hökumət DNF-nin gəlirlərinin daha az xərclənməsinə çalışmalıdır. Çünki bu, fiskal dayanıqlığın təmin edilməsi baxımından önəmlidir. Neftin dünya bazarındakı hazırkı qiyməti 60 dollar ətrafında dəyişsə də, proqnozlara əsaslanaraq onu demək olar ki, islahatlar heç bir halda arxa plana keçməməlidir. Çünki postneft dövrünün, eləcə də Strateji Yol Xəritəsinin özünün hədəfləri var. O hədəflər kontekstində islahatların davam etdirilməsinə ehtiyac var. Bununla paralel Strateji Yol Xəritəsinin monitorinqinin və qiymətləndirilməsinin aparılması və onun ictimaiyyətə təqdim edilməsi müsbət haldır".

**V.Bayramovun sözlərinə görə, növbəti dövrdə islahatlar Strateji Yol Xəritəsində nəzərdə tutulan fəaliyyət planına uyğun olaraq həyata keçirilməlidir:** "Fəaliyyət planında illər ərzində nəzərdə tutulan bütün addımlar əksini tapıb. Biz təklif edirik ki, bu fəaliyyətlər rüblər üzrə də planlaşdırılsın. Bu zaman onu monitorinq etmək daha asan olacaq. Bu mənada hər rübün sonunda Strateji Yol Xəritəsində nəzərdə tutulan fəaliyyətlərin yerinə yetirilib-yetirilməməsini müəyyən etmək daha asan olacaq. Strateji Yol Xəritəsi islahatların davam etdirilməsi baxımından çox vacibdir. Növbəti dövrdə neftin dünya bazarında qiymətinin hansı səviyyədə olmasından asılı olmayaraq, hökumət Strateji Yol Xəritəsində nəzərdə tutulan fəaliyyətləri zamanında həyata keçirməyə çalışmalıdır".

**Ekspert qeyd etdi ki, neftin mövcud qiyməti arxayınlıq üçün əsas yaratmır:** "O kontekstdən neftin dünya bazarındakı qiymətinin 60 dollar ətrafında olması praktik olaraq, arxayınlıq üçün bir maliyyə bazası formalaşdıra bilməz. Strateji Yol Xəritəsinin qiymətləndirmə yekunları ilə bağlı ölkə prezidenti də son müşavirədəki çıxışında xüsusi qeydlərini etdi və oradakı fəaliyyətlərin nəzərdə tutulan müddətdə həyata keçirilməsi ilə bağlı tapşırıqlarını verdi".

❑ **Nərgiz LİFTİYEVA**




# Ərəb şahzadələrinin həbsi nefti bahalaşdırdı, bundan sonra nə olacaq?

## İlham Şaban: "Bundan sonra qiymətlərin nə qədər dayanıqlı olacağını zaman göstərəcək"

**Azərbaycan noyabrın 30-da Vyanada keçiriləcək OPEK Nazirlər Şurasının 173-cü iclasına rəsmi dəvət alıb. Bunu "Trend"ə Energetika Nazirliyinin mətbuat xidmətinin rəhbəri Zəminə Əliyeva deyib. Onun sözlərinə görə, Azərbaycan bu dəvəti nəzərdən keçirmək və iclasda iştirakı razılaşdırmaq niyyətindədir.**



Qeyd edək ki, iclasda neft hasilatının azaldılması barədə OPEK+ sazişinin icra olunması, istehsalat kvotalarının artırılması və sazişin müddətinin uzadılması məsələləri müzakirə olunacaq.

Bəs görəsən, OPEK-in bu iclasından sonra dünya bazarında neftin qiyməti hansı istiqamətdə dəyişəcək? Qeyd edək ki, "qara qızıl"ın bahalaşmasının əsas səbəbi kimi göstərilən Suriyadakı vəziyyət də normala dönmək üzrədir. Bu baxımdan dünya neft bazarındakı vəziyyət dəyişə bilər.

Qeyd edək ki, hazırda dünya birjalarında neftin qiyməti müxtəlif istiqamətlərdə dəyişir."AzəriLayt" markalı neftin bir barelinin qiyməti 0,53 dollar ucuzlaşaraq 63,34 dollar olub.

Nyu-Yorkun NYMEX birjasında "Layt" markalı neftin bir barelinin qiyməti 0,03 dollar bahalaşaraq 56,45 dollar, Londonun ICE birjasında "Brent" markalı neftin bir barelinin qiyməti isə 0,07 dollar artaraq 62,29 dollar təşkil edib.

**OPEK-in iclasından sonra durumun necə dəyişəcəyinə və orada əldə olunacaq razılaşmanın bazara necə təsir edəcəyinə gəlincə, sualımızı Neft Araşdırmalar Mərkəzinin rəhbəri İlham Şaban cavablandırdı.**

**O bildirdi ki, neftin hazırkı qiyməti hasilatçı ölkələrin ürəyincədir və bunun saxlanılmasına çalışacaqlar:** "OPEK-in noyabrın sonunda keçiriləcək iclası, o iclasa qeyri-OPEK ölkələrinin də bir-bir dəvət alması onun nəticəsidir ki, oktyabrın 29-dan sonra neftin qiyməti 60 dolları keçdi, bu gün də 62 dollardan yüksəkdədir. Bazara bir-bir müsbət siqnallar daxil olur. Bu da neftin qiymətinin yüksəlməsini təmin edir. Bazar iştirakçıları da bundan məmnundurlar. İkincisi, neftin qiymətini qızışdıran amillər hələ də bazarda kifayət qədərdir. Hesab etmək olar ki, noyabrın sonuna qədər əgər ayın əvvəlində Səudiyyə Ərəbistanında baş verən siyasi proseslər nəticəsində neftin qiyməti kifayət qədər artdıqca, ondan sonra müəyyən korreksiyalar nəticəsində 60 dollara doğru geriləsə də, yenə də OPEK-in iclası ilə bağlı pozitiv informasiyalar qiymətin hələ ki 60 dollardan aşağı enmə ehtimalını sıfıra endirir. Neftin qiyməti, faktiki olaraq, noyabr ayı üçün orta hesabla 60 dollar olacaq. Sentyabr ayında "Brent" markalı neft 56 dollar olmuşdusa, oktyabr ayında 57,5 dollar olmuşdusa, noyabr ayında 60 dollar və ondan bir qədər artıq olmasına ümidlər var. 3 aydır ki, "qara qızıl"ın qiyməti artan xətlə inkişaf edir. Bu da OPEK-in çıxaracağı qərarla bağlıdır. Qərar da ondan ibarətdir ki, gələn ilin birinci rübünün sonundan sonrakı dövr üçün də hasilatın indiki səviyyədə saxlanılması və azaldılması ilə bağlı informasiyalar daha çox gündəmdədir. İkincisi, əgər bir il bundan öncə razılaşmaya qeyri-OPEK ölkələrindən 11 ölkə qoşulmuşdusa, indi onların sayının artırılması yönündə də işlər aparılır. Bütün bunlar pozitiv addımlardır və neftin qiymətinin artımına dəstək verir".

**Ekspertin sözlərinə görə, neftin hazırkı qiymətini ədalətli hesab etmək olar:** "İki il öncə neftin qiyməti 45 dollar ətrafında idi və iqtisadiyyatları neftdən asılı olan ölkələr bu təşəbbüslə çıxış edəndə bildirirdilər ki, bizim məqsədimiz neftin ədalətli qiymətinə nail olmaqdır. O zaman onlar ədalətli qiymət olaraq neftin bir bareli üçün 55-60 dollar dəhlizini götürmüşdülər. İndi üstündən bir il keçdikdən sonra görürük ki, onların səyləri hədər getməyib. Həqiqətən də öz hədəflərinə çatıblar. Bundan sonra qiymətlərin nə qədər dayanıqlı olacağını isə zaman göstərəcək. Burada obyektiv səbəblər də var. Bu da ondan ibarətdir ki, son illərdə neft hasilatları azalmağa doğru gedib və bu da neftin qiymətinə təsir edən amillərdən biridir".

**OPEK-in hasilatı azaltmasından sonra bazarda yaranan boşluğu ABŞ-ın şist neft hasilatı hesabına tutmasına və bununla da qiymətlərin ucuzlaşacağı ehtimalına gəlincə, İlham Şaban bildirdi ki, buna rəğmən OPEK bazarda öz sözünü deyə biləcək:** "Ötən ilin oktyabrı ilə bu ilin oktyabrı arasında ABŞ şist neftin hasilatı hesabına gündəlik hasilatını 1 milyon barelədən artıq artıra bilib. Ancaq həmin müddətdə OPEK və qeyri-OPEK ölkələri dünya bazarından təqribən 1,8 milyon barelə yaxın nefti çıxarda biliblər. Amerikanın səyləri, bazara təsir edən siyasi və klimatik faktorlar ona gətirib çıxarıb ki, Amerika hasilatı kifayət qədər artırmasına baxmayaraq neftin qiymətindəki artım özünü doğrulda bilib. Heç də o demək deyil ki, Amerikada hasilat azalır. Əvvəllər belə bir mülahizə var idi ki, OPEK ölkələri hasilatı azaltmasına baxmayaraq, Amerika bunu öz hasilatı ilə neytrallaşdıra bilir. 1973-cü ildə ilk dəfə OPEK güclü bir təşkilat olaraq bazara təsir mexanizmini ortaya qoymuşdu. İndi də onu təkrarlaya bilər".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 243 (6857) 22 noyabr 2017

**Azərbaycanın xalq artisti Fuad Poladovdan yeni xəbər var. Modern.az saytına danışan aktyor bildirib ki, bir müddət əvvəl müalicə aldığı Milli Onkologiya Mərkəzindən çıxıb, hazırda ev şəraitində müalicəsini davam etdirir. Aktyor qeyd edib ki, müalicə alsa da iynə-dərmanın heç bir xeyri yoxdur, səhhətində bir irəliləyiş hiss etmir. Çox çətinliklə danışan F.Poladov həmkarlarının ona tez-tez baş çəkdiyini bildirib. Lakin aktyorun açıqlamasında ən çox diqqət çəkən məqam son sözləri olub. Belə ki, aktyor qeyd edib ki, onu yoluxmağa gələn həmkarlarının adını deyə bilməz: "Zəng edirlər, gəlirlər. Amma onların adını çəkmək istəmirəm. Çünki sonra onlara problem olar. İşdən çıxararlar. Həmkarlarımı çətin vəziyyətdə qoymaq istəmirəm".**



# Fuad Poladovun hamını təəccübləndirən bir cümləsi...

## Tanınmış sənətkar niyə "mənə baş çəkməyə gələnlərin adını çəkmək istəmirəm" deyib?

Maraqlıdır, ağır xəstəlikdən əziyyət çəkən, özünün dediyi kimi, müalicəsinin heç bir nəticəsini görməyən aktyorun bu cür açıqlama verməyinin səbəbi nədir? Onu yoluxmağa gələn həmkarlarının işdən çıxarılmaq təhlükəsi niyə olsun ki?

Qeyd edək ki, Fuad Poladov hazırda Səməd Vurğun adına Rus Dram Teatrının üzvüdür. Ötən il isə aktyor gözlənilmədən əməkdaşlıq etdiyi Akademik Milli Dram Teatrından istefa verdi. Onun istefa səbəbinin gənc aktyor Hikmət Rəhimovun işdən çıxarılması ilə bağlı olduğu deyilsə də, xalq artistinin Azərbaycan teatr və kino mədəniyyətindəki misilsiz rolunu nəzərə alaraq bir çoxları onun doğma evi qədər sevdiyi teatrdan adi bir səbəbə görə getməsinə inanmadı.

**Məsələyə aydınlıq gətirmək üçün Rus Dram Teatrı ilə əlaqə saxladıq. Teatrın direktor müavini İlham Məmmədov məsələyə bu cür şərh bildirdi:** "Fuad Poladov bizim gözəl aktyorumuzdur və onunla bağlı bir problemimiz yoxdur. Həmin açıqlama ilə biz də tanışıq. Bu barədə Fuad Poladovla əlaqə saxlayıb danışdıq, o bildirdi ki, fikirləri başqa cür anlaşılıb".

**İlham Məmmədov mütəmadi olaraq hər gün aktyorla əlaqə saxlanıldığını bildirdi:** "Hər gün vəziyyəti ilə bağlı maraqlanırıq, lazım gəldiyində köməkliyimizi əsirgəmirik. Bu belə də olmalıdır. Çünki bizim bir Fuad Poladovumuz var, başqası yoxdur".

**Heç şübhəsiz ki, aktyoru yoluxmağa gələn həmkarlarından Akademik Milli Dram Teatrının aktyorları da var. Bu səbəbdən adıçəkilən teatrın da mövqeyini öyrənməyə çalışdıq. Teatrın mətbuat katibi Cavid Zeynallı bildirdi ki, Akademik Milli Dram Teatrının Fuad Poladovla bağlı münasibəti birmənalıdır:** "Fuad Poladova görkəmli sənətkarımız kimi hər zaman hörmətimiz olub. Fuad müəllim indi ömrünün həssas dövrünü yaşayır, xəstəliklə mübarizə aparır. Ona yalnız və yalnız şəfa, möhkəmlik, səbir arzu edirik. Akademik Milli Dram Teatrının bütün kollektivi Fuad Poladova hər zaman diqqətli, sayğılı münasibət göstərib. Bu münasibət hər zaman davam edəcək, başqa cür də ola bilməz. Arzu edirik ki, Fuad müəllim yenidən sağlamlığına qovuşsun, öz rolları ilə tamaşaçıları yenidən sevindirsin".

❑ **Xalidə GƏRAY**



# Nizami Gəncəvinin Dərbənddəki heykəlinin barmağını kəsdilər

**"Dahi Azərbaycan şairi Nizami Gəncəvinin Dağıstanın Dərbənd şəhərindəki abidəsinə ziyan vurulub. Şəhər meriyası abidənin təhlükəsizliyinin təmin olunması ilə bağlı müraciətlərimizə cavab vermir".**



Bunu "Report"un Rusiya bürosuna açıqlamasında Dərbənd şəhərindəki Azərbaycan diasporunun rəhbəri Telman Hacıəliyev deyib.

Onun sözlərinə görə, naməlum şəxslər şairin heykəlinin baş barmağını sındırıb və abidə ətrafındakı parkı pis vəziyyətə salıblar.

"Ağaclar kökü ilə qanşıq torpaqdan çıxarılıb, qazon tapdanıb. Müvafiq tədbirlərin görülməsi və vandalların, nəhayət, cəzalandırılması üçün hüquq-mühafizə orqanlarına və meriyaya müraciət etmişik" - T.Hacıəliyev bildirib.

Onun sözlərinə görə, bu, artıq ilk belə hadisə deyil.

"2015-ci ilin yanvar ayında abidəni yandırmışdılar. Dağıstanın keçmiş rəhbəri Ramazan Abdulatipovun göstərişi ilə abidə bərpa edildi, onun ətrafında isə abadlıq işləri həyata keçirildi. Amma park ərazisində müşahidə kameraları quraşdırılmadı və buna görə də belə əməli törədənlər məsuliyyətdən qaçmağı bacarır. Ümid edirəm ki, bu dəfə probleme daha ciddi yanaşacaqlar və cinayətkarlar yaxalanacaq", - diaspor rəhbəri vurğulayıb.

# Rasim Balayev müalicə üçün İstanbula getdi

## Xalq artisti "yalandır, 160 manat pensiya alıram" dedi

**Azərbaycanın xalq artisti Rasim Balayev müalicə olunmaq üçün Türkiyəyə gedəcək.**



Bu barədə "Report"a xalq artisti özü məlumat verib.

O, Türkiyəyə noyabrın 22-də yollanacağını, müalicə xərclərinin Azərbaycan dövləti tərəfindən ödəniləcəyini deyib: "İstanbula gedirəm. Müalicə alacağım xəstəxananın adını hələ bilmirəm. İndiyədək demək olar ki, Bakıdakı bütün xəstəxanaları gəzmişəm, hara göndərirdilər ora da gedirdim".

Qeyd edək ki, R.Balayev şəkər və təzyiq xəstəliklərindən əziyyət çəkir. Onun onurğasında da problem var.

"Rasim Balayev ayda 1300 manat prezident təqaüdü, 1000 manat şəxsi pensiya, xalq artisti adına görə 100 manat, orden və medallarına görə də müəyyən ödənişlər alır. Bundan əlavə, reklam və seriallara da çəkilir, istədiyi qonorarı ala bilir. Buna baxmayaraq, Rasim Balayev istənilən vaxt qurumumuza müraciət edərsə, ona köməklik göstərməyə hazırıq".

Bunu Şəfiqə Məmmədovanın rəhbərlik etdiyi Azərbaycan Kinematoqrafçılar İttifaqının mətbuat xidməti xalq artisti Rasim Balayevlə bağlı açıqlamasında bildirib.

**Xalq artisti Rasim Balayev isə modern.az-a deyib ki, həmin fikirlərin hamısı yalandır:** "Mənim şəxsi pensiyam çox azdır, yəni 150-160 manat alıram. Bilirsiniz, onlar həmişə məni dövlətli bilirlər, qoy elə də bilsinlər. Eyni zamanda onlar həmişə mənə altdan yuxarı baxırlar. Orada qeyd edilib ki, guya mənimlə əlaqə yaradıblar. Halbuki mən heç Azərbaycan Kinematoqrafçılar İttifaqının üzvü də deyiləm və azad bir adamam. Mənim 2400 manatdan çox pul qazanmağım məsələsi tamamilə yalandır".

# Kabinetin pərdəsini çəkən prezidenti şərləyirlər, yoxsa?



**Samir SARI**

**Bu, yüzdə-yüz yeni dəbdir, dünyanın hər tərəfində məşhur, pullu və ahıl kişilərə qurşaqdan aşağı zərbələr tutuzdururlar.**

Hollivudun məşhur prodüseri Harvi Vaynşteynin başına gələnlərdən sonra indi də İtaliya Futbol Federasiyasının prezidenti postundan istefa verən Karlo Tavekkio cinsi zorakılıqda şübhəli bilinir.

Adı açıqlanmayan bir qadın şikayətçi deyib ki, o, iş prosesini müzakirə etmək üçün sabiq prezidentin qəbulunda olub və bu zaman K.Tavekkio kabinetinin pərdələrini çəkərək ona toxunmaq istəyib.

Ağsaqqalın 74 yaşı var və bu yaşda adamın gərək saman çuvalını qaldırmağa gücü çatsın ki, kabinetinin pərdəsini çəkməyə, xanım qonağına yavuqlaşmağa ehtiyac duysun.

Bu saman çuvalı məsələsini mən dünya görmüş kişilərdən eşitmişəm. Sizə çox ağır gəlməsin, saman çuvalının ən çoxu 8-10 kilo çəkisi olar. Bunu qaldırmaq isə əslində o qədər də çətin deyil.

Yəni sırf fiziki-tibbi prizmadan yanaşsaq, Tavekkio kabinetinin pərdəsini çəkibsə, "Allaha təvəkkül" deyə çəkməyib, bilib ki, bütün günü trenajor zalında, hovuzda, saunada canına qulluq edən adamdır, saman çuvalını qaldıra biləcək gücdədir.

Məsələyə Tavekkionun milli mənsubluğu baxımından yanaşsaq, yenə də situasiya Karlo kişinin ziyanınadır. Çünki italyanlar yanıqlıqda ərəblərdən ötə olarlar ki, zəif olmazlar. Zalım uşağının beynində elə eyzən kabinetin pərdəsini çəkmək fikri dolaşır. İtaliyanın sabiq baş naziri Berluskoninin adı o məsələyə görə dillərdə əzbər deyildimi?

Ancaq Tavekkionun durumunu yüngülləşdirən bir detal var. Bu da son vaxtlar o cür ittihamların bollaşmasıdır. Gündə yüzlərlə qadının zorlandığı Hindistan qalıb qıraqda, Amerika və Avropa ölkələrində kim kimə qıyqacı baxıb udqundusa, qanı gedir, məhkəməyə verirlər ki, bu adam mənə sataşdı.

Özü də yazıq Tavekkionun işi "Oskar"lı prodüser Vaynşteynin məsələsindən fərqlənir. Hollivudun qoca civiləri 20-30 ildən sonra Vaynşteynin üzünə dururlar və hiss olunur ki, əbəs yerə deyil, ortada bir şey olub, qoca prodüser dinc durmayıb.

Bircə pis iş var ki, aradan bu qədər uzun illər keçəndən sonra Vaynşteyni "məkri zənən" fitnəsinə tuş qoyanlar onun hesabına qazandıqları dünya şöhrətinin, milyonların, lüks həyatın üstündən keçirlər. Hollivuddakı haqq-hesablar barədə yazılan bir romanda (adını unutmuşam) göstərilir ki, böyük sərvət və şöhrət qazanmaq istəyən gənc aktrisalar özləri növbəyə dururlar ki, məşhur rejissor və prodüsser onlara "qud nayt" desin, hansısa rola çəksin. Bundan ötrü onlar hər şeydən keçməyə hazır olduqlarını bildirirlər. Güman ki, Vaynşteyinin üzünə duranlar da o tipdəndirlər. Əksinə olsaydı, onlar aktrisa karyerasından imtina etmiş olmalıydılar, ya da elə o iyrənc təkliflər edilən vaxt söhbəti ictimailəşdirərdilər. Əzrayılın Vaynşteynə "qud moninq" dediyi bir vaxtda bu ittihamların səsləndirilməsi çox gecdir.

Hərçənd dünya miqyasında yaradılan "Me too" *(təxminən "mənə də sataşıblar")* həştəqinin populyarlaşması qadın hüquqları baxımından faydalıdır. Hazırda bütün dünyada bu kampaniyaya qoşulma prosesi gedir.

Bəs bu kampaniyaya bizim ölkəmizdə də qoşulanlar olacaqmı? Belə görünür ki, olmayacaq. Bizdə belə şeylərə pis baxırlar, deyirlər, olan olub, torba dolub, indən belə özümüzü niyə biabır edək.

Amma qardaş Türkiyəni bilmək olmaz, orda bu kampaniyaya qoşulanlar ola bilər. Məsələn, o gün Youtube-də müğənni İbrahim Tatlısəsin həyat yoldaşları və sevgililərinə dair bir süjetə baxırdım, belə məlum olurdu ki, İbo 9-10 xanımla, türkün sözü, birlikdə olub. Düzdür, xanımlar Türkiyənin ən gözəl qadınları olublar və sənətkarla qarşılıqlı razılıq əsasında pərdəni çəkiblər, amma siz həmin videolentin altında yazılan şərhləri görəydiniz. "Pəzəvəng"dən tutmuş "anasının ayağı sürüşkən"ə qədər hər söyüş var.

Həqiqət isə bundan ibarətdir ki, İbonun həyat yoldaşı və sevgilisi olmuş qadınlar onunla dost, sevgili olduqlarına görə qürur duyur, birgə yaşadıqları illəri ömürlərinin ən yaxşı dövrü sayırlar, "İbo mənə təcavüz edib" deyə üzünə duran da yoxdur.

Bizim atalar bu kimi durumları vaxtında nəzərə alaraq düyə və kələnin intim münasibətlərinə dair aktual fikir bildiriblər.

# Robotlar insanları hansı peşələrdə əvəz edəcək?

## Yaxın 10-15-ildə yeni yaranacaq ilginc peşələr

**Elektrik alətləri daha çox iş yükünü insanlardan aldığı üçün inkişaf edən texnologiya özü ilə bərabər insanlar üçün yeni və maraqlı iş sahələri gətirir. Bu alətlər günbəgün funksionallıqlarını artıraraq, insanların üzərindən daha artıq iş yükünü alır.**



Modern industriya cəmiyyəti daha gəlirli inkişaf təcrübəsi üçün heç yorulmayan yeni işçilər əldə edərkən insanların etməli olduğu işləri də texnologiyanın inkişafına paralel olaraq mərtəbəli şəkildə elektron alətlərə verir.

Mərkəzi Amerikada fəaliyyət göstərən "Cognizanta" firmasına görə qarşımızdakı 10-15 il içərisində ölkədəki işlərin yüzdə 12 faizini robotlar həyata keçirəcək. Bəs işini robotlara "qapdıran" insanlar hansı işləri görəcək?

Doğrudur, robotlar işlərimizi əlimizdən alacaqlar. Amma onları yaradan texnologiya onlarla yeni iş sahəsini də özü ilə bərabər yaradacaq. "Cognizanta" görə, yaxın gələcəkdə insanların öz öhdəsinə götürəcəyi bir çox maraqlı iş sahəsi ortaya çıxacaq. Sənəddə yer alan məlumatlara görə, yeni yaranacaq peşələrdən bəzilərinin həyata keçməsi üçün xəyal gücü lazım olduğu halda, bəziləri üçün günümüz reallığından bir qədər irəliyə getmək yetərli olacaq.

Ağıllı robotlar dönəmindən sonra insanların öz üzərinə götürəcəyi başlıca yeni iş sahələri isə aşağıdakılardır:

**Məlumat detektivi -** Bu peşə internetlə bağlı nəsnələrdən gələn məlumatları analiz edərək, işlər və təşkilatlanmalar üçün proqnozlar verəcək. Məlumat detektivi günümüzə çox da uzaq deyil. Firmalar hal-hazırda milyonlarca dollar xərcləyərək, böyük informasiyaların potensialından faydalanmağa çalışırlar. Hazırda bu informasiyalar digital asistanlar vasitəsilə birbaşa insanların xidmətinə belə təqdim edilir.



**Müşayiətçi -** Gələcəkdə ortaya çıxacağı düşünülən bu iş biotexnologiya sayəsində çox uzun yaşayan insanların həyat keyfiyyətini artırmağı hədəfləyir. Orta yaş həddinin artması ilə, yaşlı insanların sayının da artması gözlənilir. Günlük müşayiətçilər texnologiya ilə çox da arası olmayacaq bu insanları gəzintiyə çıxaracaq və onlarla istədikləri mövzularda söhbətlər edəcək.

**Kiber şəhər analizçisi -** Kiber şəhərlərdə insanların hərəkətini təmin etmək üçün bu sahəni də bilmək lazım gələcək. Gələcəyin şəhərləri sahib olduqları milyonlarla sensorla yaşayan digital orqanizmlərə çevriləcəklər. Şəhərlərin enerji və nəqliyyat kimi olmazsa olmaz kommunal servisləri gələcəkdə sensorlar vasitəsilə çalışacaq. Gələcəyin şəhərləri, ayrıca vətəndaşların bioloji məlumatlarını, vətəndaşlıq məlumatlarını da toplayacaq. Əgər bir sensor lazımi səviyyədə işləməsə, şəhər analistinin onu təmir etməsi lazım gələcək.



**Artırılmış gerçəklik macəraları ustası -** Şekspirin 16-cı əsrdə etdiyinə bənzər bir işi öz üzərinə götürəcək bu ustalar 21-ci yüz ilin təcrübə iqtisadiyyatının qabaqcıllarından olacaqlar. Yeni nəsil əyləncə təcrübələri yaradacaq olan bu insanlar müştərilərin artırılmış gerçəklik ortamlarında təcrübədən keçirəcəkləri macəraların yazılışı, hazırlanması və həyata keçirilməsi üzərində mütəxəssisləşəcək.

**Gümrahlıq danışmanı -** Şişmanlıq və qeyri-sağlam yaşayış tərzi modern insan cəmiyyətini təhdid edən sağlamlıq problemlərindən biridir. Fitbit və ona bənzəyən ağıllı qolbaqlar istifadəçilərin gümrahlıq durumunu müəyyənləşdirə bilsələr də, onları daha sağlam yaşamağa məcbur edə bilmirlər.

Gələcəyin gümrahlıq danışmanları bu cihazlardan toplanan məlumatlar əsasında müştərilərinin gümrah qalmaq üçün çabalamağa davam etməsini təmin edəcək və onları motivasiya edəcək.

**Sağlamlıq texnoloqu -** Bu pozisiyanın həqiqi bir işə çevrildiyi dünyada tibbi xidmətlər süni zəkanın yardımı ilə bütün insanlığa çatdırıla bilir hala gəlmiş olacaq. Xəstələr bütün şikayətləri üçün həkimlərə getmək yerinə, süni zəka alqoritmlərini tətbiq edən texnoloqlar tərəfindən ziyarət olunacaq və problemlərinə diaqnoz qoyulacaq.

**Şose tənzimləyici -** Nəqliyyat üçün sürücüsüz maşınların, insansız hava nəqliyyatının istifadə olunacağı gələcəkdə şoselərin də idarəçiliyi insanların üzərində olacaq. Şose tənzimləyiciləri yolların və hava yollarının effektli bir şəkildə idarə olunmasını təmin edəcək professionallardan ibarət olacaq.

**Digital dərzi** - E-ticarətin sürətlə inkişafı ilə birlikdə insanlar artıq alış-veriş etmək üçün fiziki olaraq mağazalara getmək məcburiyyətində deyil. Amma hələ də bəzi geyimlərin satın alınmadan öncə geyinilməsi, baxılması lazımdır. Gələcəkdə müştərilərinin bədən və ölçü məlumatlarına sahib olacaq e-ticarət şirkətləri, insanlara onlara birbaşa uyğun gələcək geyim məhsulları sata biləcək.

**Fərdi xatirə kuratoru -** Peşənin adına baxıb, təəccüblənməyin. Həqiqətən də belə bir peşə var. İnsanlar artıq daha uzun yaşadıqları üçün şüur və digər beyin mərkəzli səhiyyə xidmətləri bu inkişafı bir qədər arxadan izləyir. Bir çox yaşlı insan ömürlərinin son hissəsində keçmişini yada salmaqda çətinlik keçirir. Şəxsi xatirə kuratorları, gerçəklik texnologiyasından istifadə edərək, bu insanları keçmiş xatirələrindən ibarət virtual dünyalara daxil ediləcək. Məsələn, 80 yaşındakı yaşlı bir fərdin artıq xatırlamadığı, amma kuratorun yaratdığı uşaqlıq evi xatirəsini həqiqi bir şəkildə yaşaya biləcək.

**Güvən müdiri -** Gələcəkdə şirkətlərin bugünkündən çox daha şəffaf olmaları lazım gələcək. Buna yalnızca müştəri tələbinə görə yox, əvvəlkindən daha diqqətli davranan investorları qapıdan içəri salmaq üçün ehtiyac duyacaqlar. Güvən müdiri investorların şirkətlə bağlı sual işarələrini aradan götürəcək və investisiya etdiklərini düşündükləri şirkətləri təhlil etmələrinə imkan yaradacaq.

**Sevinc TELMANQIZI**

## Astarada 3 uşaq atası intihar etdi



**Astara rayonunda intihar hadisəsi baş verib. Lent.az xəbər verir ki, rayonun Şümrüd kənd sakini, 1988-ci il təvəllüdlü Musayev Vasif Cavad oğlu özünü yaşadığı evin həyətində asaraq intihar edib.**

Oxşar hadisə Ağdamın Çəmənli kəndində də baş verib. 2001-ci il təvəllüdlü Rzayev Qığılcım Habil oğlu yaşadığı evin həyətindəki tövlədə eyni üsulla həyatına son qoyub.

Aznews.az bildirir ki, Şümrud kənd sakinlərinin verdiyi məlumata görə, Vasif Musayev özünü yaşadığı evin həyətində asıb: "Vasif ailəlidir, 3 uşaq atasıdır. Həmin günü Lənkərana gedib. Telefonu xarab idi, gedib ustaya ki, onu düzətdirsin. Oradan qayıdandan sonra isə özünü asıb. Özü də yaşadığı evdən 60 metr aralıda olan bir ağacdan. Həmin vaxt uşaqları evdə olmayıb. Vasifin səhhətində heç bir problem yox idi. Özü də çox kasıb adam idi".

## Bakıda İran vətəndaşını soyan futbolçu həbs edildi



**Bakıda İran vətəndaşına qarşı quldurluq etməkdə təqsirləndirilən şəxslərin məhkəməsi davam etdirilib. Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində quldurluqda təqsirləndirilən Bakı şəhər sakini Miqdar Məmmədov, Abşeron rayon sakinləri Orxan Atayev və Məhərrəm Məhərrəmovun cinayət işi üzrə məhkəmə iclası keçirilib.**

Hakim Novruz Kərimovun sədrliyi ilə keçirilən məhkəmə prosesində hökm oxunub.

Hökmə əsasən M.Məhərrəmov 8 il müddətinə azadlıqdan məhrum edilib.

Ev dustaqlığında olan şəxslər barəsində də həbs-qətimkan tədbiri seçilib və onlar məhkəmə zalından həbs ediliblər. Orxan Atayevə 8 il cəza təyin edilib. Futbolçu Miqdar Məmmədov isə 4 il azadlıqdan məhrum edilib.

Qeyd edək ki, 3 nəfərdən yalnız Məhərrəm Məhərrəmov barəsində həbs-qətimkan tədbiri seçilib və müttəhimlər kürsüsünə çıxarılıb. O.Atayev və M.Məmmədov barəsində istintaq dövründə həbs-qətimkan tədbiri seçilsə də onlar sonradan azadlığa buraxılıblar.

Baş verən quldurluq hadisəsinin təfərrüatı haqda bildirək ki, 3 gənc kafedə oturub çay içirmişlər. Tanımadıqları iki nəfər də kafeyə daxil olaraq yan masada əyləşiblər. Bir müddət sonra onlar arasında münasibət yaranıb və söhbət etməyə başlayıblar.

Daha sonra İran vətəndaşı Murtəza Azər və Bakı şəhər sakini Sədi Məmiyev gənclərdən onları daha yaxşı əylənə, yeyib-içə biləcəkləri bir məkana aparmalarını istəyiblər və bildiriblər ki, onların hesabını da ödəyəcəklər.

Bakıda məkanlardan birinə gələn şəxslər yeyib-içiblər. Hesabın 750 manat olması yeni tanışların, necə deyərlər, ləzzətini qaçırıb. Əsasən də İran vətəndaşının... O, bu qədər hesabı ödəməkdən imtina edib və yalnız özünün və tanışının payına düşən pulu ödəyib.

Gənclərdən Məhərrəm Məhərrəmov da telefonunu girov qoyaraq qalan məbləği gətirməyə gedib.

Onlar kafedən birlikdə çıxıblar. Binəqədi rayonunun Fatmayi qəsəbəsinə çatanda onlar mübahisə ediblər. 3 gənc dost Murtəza Azərə və Sədi Məmiyevə zor tətbiq edərək 750 manat pullarını alıblar.

Məlum olub ki, saxlanılanlardan Miqdar Məmmədov Məhərrəm Məhərəmovun qaynıdır. Məhərrəm Məhərrəmov saxlanılarkən cəmi 17 gün əvvəl toyu olubmuş.

M.Məmmədov isə 17 yaşadək futbolçulardan ibarət Azərbaycan milli komandasının və paytaxt Bakının "Keşlə" (keçmiş "İnter") klubunun azyaşlılardan ibarət heyətinin üzvü olub.

**İ.MURADOV**


## Kişilər!!! Diqqət!!! Axırıncı şans!!!

**Əgər sizə Azərbaycanda, xaricdə kömək edə bilməyiblərsə onda**
**Dr Vaiz Səmədov sizə komək edə bilər**

* Cinsi zəiflik
* Cinsi marağın azalması
* Vaxtından tez toxum ifrazatı
* Toy gecəsinin uğursuzluqları
* Prostatitlər (vəzin böyüməsi)
* Prostat vəzinin düyünlü adenoması
* Sonsuzluq
* Sidik aktların pozulmaları
* Gərginlik, yuxusuzluq, yaddaşın pozulması və digər kişilərin şikayətləri.

**Oğlan uşaqlarında və yeniyetmələrdə**

* Enurez saçların Tökülməsi,
* Sızanaqlar,
* Cinsi orqanların inkişafdan geri qalması 8-10 yaşından sonra.

**Doktor V.Səmədova saat 11:00-dan sonra, (050) 213-88-05 nömrəsi ilə əlaqə saxlamaq olar.**

Həkimin TV çıxışlarını youtube.com və facebook.com-da izləyə bilərsiniz.


## Elan

**Ələkbərli Vüsal Mübariz oğluna Azərbaycan Turizm və Menecment Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

YENİ MÜSAVAT
N 243 (6857) 22 noyabr 2017



# Konte saqqalını Bakıda qoyub gedəcəkmi...

## Bunun gerçəkləşməsi üçün "Qarabağ" bu gün döyüşməli, Bakı Olimpiya Stadionunu ağzınadək doldurmuş azarkeşlərə bu zövqü yaşatmalıdır

**Çempionlar Liqasının qrup mərhələsi başa çatmaqdadır. Bu gün təmsilçimiz "Qarabağ" ÇL beşinci turunda Bakı Olimpiya Stadionunda Avropanın ən güclü klublarından biri olan "Çelsi" ilə qarşılaşacaq.**

Son iki oyunda "Qarabağ" Madridin "Atletiko" klubu ilə oyunlarda aktivinə 2 xal yazması əlbəttə ki, azarkeşləri ümidləndirib. Nəzəri cəhətdən hətta "Qarabağ"ın 3-cü yer tutaraq Avroliqada "pley-off" da oynamaq hüququ qazanmaq şansı var. Bunun üçün isə bu gün mütləq "Çelsi"yə qalib gəlmək lazımdır.

"Çelsi" ilə ilk oyunda ağır məğlubiyyəti hələ də həzm etmək mümkün olmasa da, "Qarabağ" ilk turdakı həyəcanını arxada qoyub, ilk topunu və 2 xalını qazanıb. "Atletiko" ilə oyunlar bir daha sübut etdi ki, "protiv loma yes priyoma". Yəni ən güclü klubu belə meydandan məyus göndərmək olar, yetər ki, oyun alınsın, bu istək olsun. "Atletiko" hazırda yaxşı formada deyil, amma "Roma" ilə qarşılaşmada "Çelsi" də ilk oyunda qapımıza 6 top vuran kluba az bənzəyirdi. "Qarabağ" Bakıda "Roma"nı xeyli sıxmışdı və ilk 15 dəqiqdə buraxılmış qollar olmasaydı, "Roma" da Bakıda umduğu xalla getməyə bilərdi.

"Çelsi"nin "Roma"ya 3 top fərqi ilə uduzması, əslində bizə sərf etmədi. O baxımdan ki, İngiltərə təmsilçisi indi həm turnir vəziyyətini, həm sifətini qorumaq üçün bu gün daha hırslı olacaq. Bəlkə də bu indi milli komandanın da yükünü çiyinlərində çəkən Qurban Qurbanovun işinə yarıya bilər. "Hirsli başda ağıl olmaz" deyirlər axı..."Çelsi" bu havaya Bakıya gəlib və onlarla oyunun çox çətin olacağını indi əlində bilet axşam saat 9-u gözləyən uşağa da aydındır.

"Atletiko" ilə səfər matçı ərəfəsi də yazmışdım ki, əgər heç-heçəni və ya qələbəni bayram edə bilsək, bu, həmin turun sensasiyası olacaq. Elə də oldu. Dünya mediası "Qarabağ"ın uğurundan danışdı. Dünənədək bir çox klub rəhbərlərinin ağız büzdüyü "Qarabağ" bu gün də eyni oyunu sərgiləyə, "Çelsi"ni Bakıdan xalsız göndərə bilərsə, ÇL qəhrəmanları onlar olacaq. Bu çox çətin, əsas hücumçusu Pedro Enrikeni itirən "Qarabağ" üçün bəlkə də mümkünsüz bir işdir. Amma "Qarabağ"ın gücü həm də mümkünsüzü edə bilmək bacarığındadır. Biz "Qarabağ"ı həm də bu xarakterinə görə bəyənir, sevir və dəstəkləyirik. Matçın intriqasını artıran başqa bir səbəb "Çelsi"nin baş məşqçisi Antonio Kontenin saqqalı ilə bağlıdır. Azərbaycanın idman saytları yazdı ki, italiyalı mütəxəssis saqqal saxlayır və "Qarabağ"a uduzsa, saqqalını qırxacaq. Əlbəttə ki, Konte birbaşa elə bir fikir deməyib. Konte jurnalistlərə deyib ki, həyat yoldaşının istəyi ilə saqqal saxlayıb: "Həyat yoldaşım dedi ki, sifətdə tük yetişdirməyi bir dəfə sınaqdan çıxar. Bunu ilk dəfədir edirəm. Qarşıdakı görüşə baxacağıq. Görək, mənə uğur qazandıracaq, yoxsa... Zahiri görkəmimi yalnız xanımım belə istədiyi üçün dəyişməyə çalışacağam".



"İlk məğlubiyyətinizədək saqqal qalacaqmı" sualına isə Konte "bəli, ümidvaram ki, mövsümün sonlarında mənim böyük saqqalım olacaq" deyərək, iddiasını ortaya qoyub.

Saqqal Konteyə ilk matçda düşərli olub. Klub "Vest Bromviç" lə səfər matçından qələbə ilə qayıdıb(0:4) və bu motivasiya ilə də Bakıya gəliblər. Bizim idmandan yazan həmkarlarımız bu saqqal məsələsini yaxşı edib qabardıblar. İndi "Çelsi" ilə oyun bu saqqala görə lap maraqlı olmalıdır.

Azərbaycanlılar belə mərclərdə də bərk azarkeşdirlər. "Xal arxasınca Bakıya gələn Konte saqqalını qoyub getdi". Ləzzətli sərlövhədir. Nə olar-nə olmaz, heç olmasa, yazıb ürəyimizi boşaldaq. Amma niyə də yox? *(düzü, bu "niyə də yox" yazanda yadıma millinin hələ də sənədlərlə baş məşqçisi olan Roibert Prosineçki düşür ki, bu heç də xoş hiss deyil).* Bunun gerçəkləşməsi üçün isə "Qarabağ" bu gün döyüşməli, Bakı Olimpiya Stadionunu ağzınadək doldurmuş azarkeşlərə bu zövqü yaşatmalıdır.

**Konte bugünkü oyun haqda danışarkən deyib ki, bu, onlar üçün cari mövsümün ən vacib qarşılaşması olacaq:** ""Qarabağ"la matçda qazanılacaq qələbə bizə 1/8 finalda oynamaq imkanı verəcək. Bu, çox vacibdir. Amma qalib gəlmək asan olmayacaq. Çünki onlar "Atletiko" ilə iki matçda uduzmayıblar. "Roma" ilə görüşdə məğlub olsalar da, sonadək mübarizə apardılar. Ona görə də qələbə qazanmaq üçün oyuna yaxşı köklənməli, üzərimizdə işləməliyik". "Çelsi"nin kapitanı Qari Keyhill "Qarabağ"la oyunun çətin olacağını etiraf edib. O deyib ki, Bakıda "Çelsi"yə qələbə lazımdır.

"Qarabağ"ın prezidenti Tahir Gözəl "Çelsi"yə qarşı oyunda "Qarabağ"dan əzmkar oyun gözləyir. "Çox ağır qrupa düşmüşük. Rəqiblərimiz milyardlıq komandalardır. Heyətində dünyanın məşhur futbolçuları var. "Çelsi"yə ilk oyundakı böyük hesablı məğlubiyyəti kənara qoyaq. Londonda oyunumuz alınmadı. "Qarabağ" topa nəzarəti itirmişdi. Bakıda isə möhtəşəm azarkeş dəstəyi ilə "Roma" və "Atletiko"ya qarşı keçirdiyimiz gözəl oyunları "Çelsi" ilə matçda da görmək istəyirəm. Nəticə nə olursa, olsun "Qarabağ"ın möhtəşəm oyun göstərəcəyinə ümid edirəm" (sitatlar qol.az saytındadır).

Hakimlərə gəlincə, oyunu portuqaliyalı hakimlər briqadası idarə edəcək. Görüşün baş hakimi Manuel De Souza olacaq. Ona Alvaro Meskquita və Rikardo Santos kömək edəcəklər. Fabio Verissimo və Luis Migel Branko Qodinyo isə əlavə hakim köməkçiləri funksiyasını yerinə yetirəcək.

**Uğurlar "Qarabağ"!**

**❑ Nazim SABİROĞLU**

















YENİ MÜSAVAT

Son səhifə

N 243 (6857) 22 noyabr 2017

## Hamilə depressiyaya düşürsə...

Kanadanın Kalqari Universitetinin alimləri araşdırmalar zamanı aşkar ediblər ki, hamiləlik zamanı depressiya uşağın beyninin inkişafına çox ciddi ziyan vurur. Xarici KİV-in məlumatına görə, araşdırmalar göstərib ki, güclü depressiyada olan anaların uşaqlarında beyin qabığının qalınlığı azalır. Beyinin bu hissəsi mürəkkəb əqli proseslərinə və davranışa cavabdeh olduğuna görə gələcəkdə belə uşaqlarda müxtəlif davranış pozulmaları və təhsil zamanı problemlərin əmələ gəlməsi riski artmış olur.

Alimlər qadının hamiləlik zamanı sakit və rahat şəraitdə olmağını, streslərə məruz qalmamağını gələcək uşağın sağlamlığı üçün çox vacib hesab edirlər.

## İki dil bilən uşaqlar stereotiplərdən uzaq olur

Alimlər müəyyən ediblər ki, iki dil bilən uşaqlar dünyanı fərqli şəkildə qavrayırlar. Belə uşaqlar bir çox stereotiplərdən uzaqdırlar və mümkün qədər çox şey öyrənmək istəyirlər. Kanadanın Konkordiya Universitetinin mütəxəssisləri 5 və 6 yaşlı uşaqlar arasında eksperiment keçiriblər. Araşdırmada müxtəlif ölkələrdən olan 48 uşaq iştirak edib. Onların bəziləri yalnız bir dildə danışdıqları halda digərləri iki dil biliblər. Araşdırmanı aparan alimlər uşaqlara müxtəlif suallar veriblər. Məlum olub ki, uşaq yaşlarından fərqli dillər öyrənməklə uşaqlarda müəyyən baxışlar formalaşır. Onların həyat haqqında düşüncələri sağlam olur, dünyanı bir dil bilən uşaqlardan daha yüksək səviyyədə qəbul edir və anlayırlar.

# Oturaq həyat tərzini daha çox sevən xalq



Alimlər müəyyən ediblər ki, oturaq həyat tərzi insanları ölümə aparır. İl ərzində planetimizin əhalisinin 4%-i uzunmüddətli oturaq həyat tərzinə görə dünyasını dəyişir. San-Paulo Universitetindən olan Braziliya alimləri gün ərzində 3 saatdan çox oturmağın sağlamlıq üçün çox ziyanlı olduğunu müəyyən ediblər. 10 il ərzində davam edən irimiqyaslı araşdırmalar nəticəsində alimlərə məlum olub ki, Yer kürəsi əhalisinin 60%-i gün ərzində 3 saatdan çox oturaq şəraitdə olur. Bu orta göstərici 4,7 saat təşkil edir. Mütəxəssislər qeyd edirlər ki, dünyada ən az oturan əhali Meksika, Myanma və Butanda yaşayır. Vaxtının əksəriyyətini stol arxasında keçirənlərin ən çoxu isə Livan, Niderland və Danimarkada sakinləridir.

# Hamilə olmayan qadınları aborta yönləndiriblər

Meksikada bir klinika hamilə olmayan qadınları abort edir. Klinika, sadəcə, pul qazanmaq üçün qadınları aldadıb, əməliyyata salır. Ölkənin paytaxtı Mexico City-dəki bəzi klinikalar daha öncə də bənzəri görülməmiş bir səhiyyə dələduzluğuna imza atıb. Hamiləlik şübhəsi ilə gələn qadınlara ultrason prosesi tətbiq edən klinikalar hamilə olmayan qadınları saxta nəticələrlə aborta yönləndirirlər.

2007-ci ildən bəri ölkədə abort sərbəstdir. Abort prosedurasının məbləği təxminən 250 dollar civarındadır. Bu klinikalara baş çəkən qadınlara qan və ya idrar testi həyata keçirilmədiyi halda, hamilə olduqları və düşük riski daşıdıqları üçün aborta göndərildikləri məlum olub.

Hadisəni araşdıran Buzdfeed müxbirlərə baş çəkdikləri üç xəstəxanadan da yanlış diaqnoz verilib və körpələrini abort etmək lazım gəldiyi bildirilib. Xəstələrə eyni zamanda ultrason kağızları da verilməyib. Jurnalistlərin baş çəkdiyi 12 klinikadan 6-da qadınlar lazımsız yerə aborta yönləndiriliblər. Bu da ölkə miqyasında böyük qalmaqala səbəb olub.





## Hindli kişi ağzına 459 boru saldı

Hindistanlı Manoc Kumar Maxarana içki içmək üçün istifadə olunan plastik, kiçik borucuqları maksimum sayda ağzında tutmaqla rekorda imza atıb. Bu barədə lenta.ru saytı məlumat yayıb. Orissa ştatının 23 yaşlı sakini ağzına düz 459 ədəd borucuğu salıb. Növbəti 10 saniyə ərzində isə əllərinin köməyi olmadan onu ağzında saxlaya bilib. Bu nailiyyət Ginnesin Rekordlar Kitabına düşüb. Maxarana özündən əvvəlki rekordçu Saymon Elmordan 59 ədəd daha çox borucuğu ağzında saxlayıb. Qaydalara görə, iştirakçılardan heç biri borucuğu əli ilə tuta bilməz. Qarşısına qoyulan tapşırığı sona qədər icra etmək üçün hindli kişi əllərini rezinlə arxadan bağlayıb.




**QOÇ** - Qarşılıqlı münasibətlərdə uğurlu gedişlər edəcəyiniz gözlənilir. Bu, gələcək işləriniz üçün dönüş ola bilər. Şəxsi büdcənizi artırmaq üçün əhəmiyyətli görüşləriniz də mümkündür.

**BUĞA** - Əsəblərinizi sakitləşdirmək, daxili harmoniyanızı bərpa etmək üçün bütün gücünüzü səfərbər edin. İnsanları özünüzdən uzaqlaşdıran addımlar atmayın. Vaxtınızı sevgiyə sərf edin.

**ƏKİZLƏR** - Tərəddüdlərinizi dəf etmək üçün təcrübəli adamlarla məsləhətləşmələr aparın. Bu gün pul məsələlərini, uzaq səfərləri təxirə salın. Ailə-sevgi münasibətlərini arxa plana keçirməyin.

**XƏRÇƏNG** - Qohumluq müstəvisində qərəzli addımlara yol verməyin. Əks təqdirdə, təklənə bilərsiniz. Mərhəmətli olun və çalışın ki, rəğbət qazanasınız. Yersiz tələbkarlığınızı minimuma endirin.

**ŞİR** - Müqəddəs hədəfləriniz var, amma onlara yetişmək üçün lazımi addımlar ata bilmirsiniz. Məhz bu proqnozu oxuduğunuz andan etibarən hərəkətə keçin, Tanrı yardımçınız olar, inşallah.

**QIZ** - Gün ərzində bəd enerjili Ay bürcünüzdə olduğundan qida rasionunuza qeyri-ənənəvi təamlar əlavə etməyin. Nahardan sonra maraqlı adamlarla görüşləriniz mümkündür.

**TƏRƏZİ** - Öhdəlikləriniz çoxaldığından bu təqvimi bir qədər yorğun şəkildə başa vuracaqsınız. Amma nəticənin səmərəsini göz önünə gətirib təmkinli olmalısınız. Axşam maraqlı görüşlər gözlənilir.

**ƏQRƏB** - Nə qədər ki, öz bürcünüz "hakimdir", ətrafınızda layiqli tərəfdaşlar toplamağa çalışın. Bu, perspektivlərinizə yetişməkdə xeyli irəliləyiş yarada bilər. Təşəbbüskarlığı əldə saxlayın.

**OXATAN** - Həyatınızın həssas məqamı yetişməkdədir. Hər addımı ölçülü-biçili atın ki, uduzmayasınız. Hər şeydən öncə qarşılıqlı münasibətlərə fikir verin. Məsuliyyətinizi hiss edin.

**OĞLAQ** - Maraqlı bir gün yaşayacaqsınız. Əgər dinə, adət-ənənəyə zidd hərəkətlərə yol verməsəniz, ovqatınız yüksək olacaq. Günün ikinci yarısında şəxsi büdcənizi artırmaq üçün şansınız olacaq.

**SUTÖKƏN** - Qarşınızda böyük işlər durur. Onların öhdəsindən gəlmək üçün daxili sabitliyinizi bərpa etməlisiniz. İşgüzar görüşlərinizi intensivləşdirin. Yaşca böyük doğmalarınızın qayğısına qalın.

**BALIQLAR** - Özünüzdə yarımçıq işlər bol olduğu halda, başqalarına əlavə problemlər yaratmayın. Quranda deyildiyi kimi, ya xeyirxah söz deyin, ya da susun... Bütün bunlar düşünməyiniz üçündür.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Bu qadının həm bığı var, həm də saqqalı



Türkiyənin Show Tv kanalında yayımlanan Zahidə Yetişin verilişinə qatılan Aynur adlı qadının görüntüsü hər kəsi təəccübləndirib. Qadın olmasına baxmayaraq, saqqalları və bığları olan qadın saqqalları ucbatından sözlüsünün onu tərk etdiyini açıqladı. 40 yaşında olduğunu deyən bəxtsiz qadın 30 yaşından etibarən saqqallarının çıxdığını deyir. Dəfələrlə saqqalını və bığını alsa da, yenidən çıxıb. Verilişin qonağı olan qadın həkimi isə bu hadisənin başqa səbəblərinin ola biləcəyini və qadının müalicə olunmasının vacibliyini bildirdi.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100